AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

31 OKTYABR 2018-ci il ÇƏRŞƏNBƏ № 243 (6276) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Prezident İlham Əliyev İsveçrənin dövlət katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da İsveçrə Konfederasiyasının təhsil, araşdırma və innovasiya üzrə dövlət katibi Mauro Dell'Ambrogionu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın yeni sahələri əhatə etməsindən məmnunluğunu bildirərək qeyd etdi ki, əgər əvvəllər iqtisadi əlaqələr enerji, investisiya, tikinti materialları sahələrində inkişaf edirdisə, hazırda tərəflər əməkdaşlıq istiqamətlərinin şaxələndirilməsində maraqlıdırlar.

İsveçrə Konfederasiyasının federal müşaviri, İqtisadi Məsələlər, Təhsil və Tədqiqatlar üzrə Federal Departamentin rəhbəri Yohan N.Şnayder-Ammanın ölkəmizə builki səfərinin uğurla keçdiyini vurğulayan Prezident İlham Əliyev Mauro Dell'Ambrogionun Azərbaycana bu səfərinin də əlaqələrimizin inkişaf etdirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi. Təhsil, innovasiya istiqamətlərinin ölkəmiz üçün prioritet təşkil etdiyini deyən Prezident İlham Əliyev bu baxımdan dünən Şəki şəhərində Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sayca 15-ci mərkəzinin açılışında iştirak etməsini məmnunluqla qeyd etdi.

İsveçrənin texnologiyalar sahəsində çox yaxşı təcrübə qazandığını vurğulayan Prezident İlham Əliyev bu sahədə də əlaqələrimizin inkişafı üçün yaxşı imkanların olduğunu dedi.

İsveçrə Konfederasiyasının təhsil, araşdırma və innovasiya üzrə dövlət katibi Mauro Dell'Ambrogio ölkəmizdə keçirdiyi görüşlər barədə dövlətimizin başçısına məlumat verərək Təhsil Nazirliyində ölkələrimiz arasında təhsil sahəsində əməkdaşlığa dair Saziş imzaladıqlarını və ADA Universitetində olduqlarını məmnunluqla qeyd etdi. O, bu səfəri çərçivəsində Azərbaycan-Fransız Universitetində (UFAZ) mühazirəsi zamanı da elm və təhsil sahələrinin inkişafının və bu sahədə əməkdaşlığın önəmi barədə danışdığını dedi. Turizm sahəsində əməkdaşlığa toxunan Mauro Dell'Ambrogio İsveçrə Turizm Təşkilatı ilə Azərbaycan Turizm Agentliyi arasında imzalanan Sazişin mühüm əhəmiyyət daşıdığını vurğuladı, bu sahədə əməkdaşlığın genişləndirilməsində ölkələrimiz arasında birbaşa aviareyslərin açılmasının önəmini qeyd etdi.

Görüşdə iqtisadiyyat, turizm, təhsil, o cümlədən peşə təhsili sahələrində əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## Prezident İlham Əliyev Türkmənistan Nazirlər Kabineti sədrinin müavinini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Türkmənistan Respublikası Nazirlər Kabineti sədrinin müavini Məmmetxan Çakıyevi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev qeyd etdi ki, dövlət başçılarının qarşılıqlı səfərləri, eləcə də beynəlxalq tədbirlər çərçivəsində mütəmadi görüşləri ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynayır. Dövlətimizin başçısı, eyni zamanda, bildirdi ki, müvafiq strukturların rəhbərlərinin görüşləri də əməkdaşlığımızın genişləndirilməsi işinə öz töhfəsini verir. Prezident İlham Əliyev bu yaxınlarda Türkmənistan Nazirlər Kabineti sədrinin müavini, xarici işlər naziri Rəşid Meredovun ölkəmizə səfəri zamanı ikitərəfli münasibətlərimizin müxtəlif aspektlərinin müzakirə edildiyini dedi. Dövlətimizin başçısı Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Məmmetxan Çakıyevin böyük nümayəndə heyəti ilə ölkəmizə səfərindən məmnunluğunu ifadə etdi, bu səfərin dostluq və qardaşlıq əlaqələrimizin möhkəmlənməsi, əməkdaşlığımızın daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini bildirdi.

Məmmetxan Çakıyev, ilk növbədə, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun salamlarını və ən xoş arzularını dövlətimizin başçısına və Azərbaycan xalqına çatdırdı. O, hökumətlərarası səviyyədə birgə fəaliyyətin həyata keçirilməsi üçün yaradılan şəraitə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Görüşdə ölkələrimizin əlverişli coğrafi mövqedə yerləşməsinin önəmi qeyd olundu, həm Azərbaycanda, həm də Türkmənistanda ən müasir nəqliyyat infrastrukturunun yaradıldığı vurğulanaraq nəqliyyat, tranzit, logistika sahələrində əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğu bildirildi, ölkələrimizin ixracat imkanları və tranzit yüklərin daşınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Türkmənistan Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qurbanqulu Berdiməhəmmədova çatdırmağı xahiş etdi.

**AZƏRTAC**

## Efiopiya Federativ Demokratik Respublikasının Prezidenti Zati-aliləri xanım Sahle-Uork Zevdeyə

Hörmətli xanım Prezident,

Efiopiya Federativ Demokratik Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Efiopiya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Efiopiya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## Braziliya Federativ Respublikasının yeni seçilmiş Prezidenti Zati-aliləri cənab Jair Bolsonaruya

Hörmətli cənab Bolsonaru,

Braziliya Federativ Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Braziliya arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Braziliya xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## Prezident İlham Əliyev Mərakeşin inzibati islahatlar və dövlət qulluğu nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Mərakeş Krallığının inzibati islahatlar və dövlət qulluğu naziri Məhəmməd bin Abdelkaderi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Mərakeş Krallığı arasında münasibətlərin yaxşı inkişaf etdiyini bildirərək, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində həmişə bir-birini dəstəklədiyini vurğuladı. İqtisadi, regional inkişaf sahələrində də yaxşı nəticələrin olmasının zəruriliyini qeyd edən Prezident İlham Əliyev Mərakeş Krallığının inzibati islahatlar və dövlət qulluğu naziri Məhəmməd bin Abdelkaderin Azərbaycana səfərinin iki ölkə arasında əlaqələrə müsbət təsir göstərəcəyinə və ölkəmiz haqqında daha ətraflı məlumat alması işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Mərakeş Krallığının inzibati islahatlar və dövlət qulluğu naziri Məhəmməd bin Abdelkader qeyd etdi ki, Azərbaycan Prezidenti ilə görüşü ölkələrimiz arasında mövcud olan gözəl münasibətlərin daha da inkişaf etdirilməsinin yaxşı bir nümunəsidir və siyasi iradənin təzahürüdür. Ölkəsinin də Azərbaycanla əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu deyən Məhəmməd bin Abdelkader bildirdi ki, Azərbaycan Prezidentinin səyləri və rəhbərliyi sayəsində ölkəmiz davamlı inkişafa nail olub və Azərbaycanın əldə etdiyi nailiyyətlər Mərakeş Kralı Əlahəzrət VI Məhəmməd və Mərakeş xalqı tərəfindən böyük iftixarla qəbul olunur. Qonaq, eyni zamanda, dünya əhəmiyyətli mühüm tədbirlərin, o cümlədən Bakı Humanitar Forumu, Avropa Oyunları, Avroviziya mahnı müsabiqəsi, İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda uğurla keçirilməsi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Mərakeş Krallığı arasında imzalanmış Memorandumun əhəmiyyətindən danışıldı, Azərbaycanın bu sahədə təcrübəsinin Mərakeşdə tətbiq olunmasının önəmi qeyd olundu. Söhbət zamanı ölkələrimiz arasında siyasi əlaqələrin çox yaxşı tarixə malik olduğu vurğulandı, iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyi qeyd edildi.

Məhəmməd bin Abdelkader bildirdi ki, Azərbaycan Mərakeşin ərazi bütövlüyünü dəstəklədiyi kimi, öz növbəsində, Mərakeş də Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir.

**AZƏRTAC**

## V.T.Zeynalovun Bakı şəhəri Səbail Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Vüqar Teyyub oğlu Zeynalov Bakı şəhəri Səbail Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## T.N.Məmmədovun Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Tahir Nadir oğlu Məmmədov Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## A.Ə.Ağayevin Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Asif Əzizağa oğlu Ağayev Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## Argentina Respublikasının Buenos-Ayres şəhərində keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Argentina Respublikasının Buenos-Ayres şəhərində keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında yüksək nəticələrə görə Azərbaycan Respublikası idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

*1.1.* birinci yeri tutan hər bir idmançıya 50 min manat, onun şəxsi məşqçisinə 25 min manat;

*1.2.* ikinci yeri tutan hər bir idmançıya 30 min manat, onun şəxsi məşqçisinə 15 min manat;

*1.3.* üçüncü yeri tutan hər bir idmançıya 20 min manat, onun şəxsi məşqçisinə 10 min manat;

*1.4.* komandanın baş məşqçisinə idman növü üzrə ən yüksək nailiyyət göstərmiş idmançıya görə şəxsi məşqçinin aldığı məbləğ qədər (bir dəfə).

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## Argentina Respublikasının Buenos-Ayres şəhərində keçirilmiş Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün ən yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi Prezidentinin Sərəncamı

Buenos-Ayres şəhərində keçirilmiş Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında əldə olunmuş yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərinin mükafatlandırılması məqsədilə **qərara alıram:**

Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün Milli Olimpiya Komitəsinin mükafatlarının məbləği aşağıdakı qaydada müəyyən edilsin:

-Birinci yeri tutan hər bir idmançıya 25 min manat, onun məşqçisinə isə 12 min 500 manat

-İkinci yeri tutan hər bir idmançıya 15 min manat, onun məşqçisinə isə 7 min 500 manat

-Üçüncü yeri tutan hər bir idmançıya 10 min manat, onun məşqçisinə isə 5 min manat

-Komandanın baş məşqçisinə idman növü üzrə ən yüksək nailiyyət göstərmiş idmançıya görə şəxsi məşqçisinin aldığı məbləğ qədər (bir dəfə).

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin Prezidenti.**
**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## "Azərbaycan" İstilik Elektrik Stansiyasının infrastrukturunun təkmilləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Əhalinin və iqtisadiyyatın elektrik enerjisi ilə təchiz olunmasında və ölkənin elektrik enerjisi sistemində xüsusi yer tutan "Azərbaycan" İstilik Elektrik Stansiyasında baş vermiş qəza ilə bağlı aparılmış araşdırmalar nəticəsində stansiyanın fəaliyyətində aşkar edilmiş nöqsanların aradan qaldırılması və infrastrukturunun təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan" İstilik Elektrik Stansiyasında və yarımstansiyalarında əsaslı təmir-quraşdırma işlərinin görülməsi və zəruri avadanlıqların tədarük edilməsi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinə nizamnamə kapitalının artırılması üçün ilkin olaraq 48,0 (qırx səkkiz) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## Q.N.Novruzovun Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Qulu Novruz oğlu Novruzov Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## A.Ə.Ağayevin Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Asif Əzizağa oğlu Ağayev Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurası üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3547 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurası üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3547 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, N 12 (I kitab), maddə 2462) "Sevinc Həsənova" sözləri "Şirzad Abdullayev" sözləri ilə, "Emin Hüseynov - Azərbaycan Respublikası maliyyə nazirinin müavini" sözləri "İlqar Fətizadə - Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 463 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 384 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 216 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 463 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, N 7, maddə 626; 2017, N 2, maddə 170) ilə təsdiq edilmiş "Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında Əsasnamə"nin 5.2-ci bəndində "və Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının" sözləri ", Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının və Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## İ.A.Ələkbərovun Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

İsmayıl Ağa Qulu oğlu Ələkbərov Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## Kənd təsərrüfatı işçilərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Kənd təsərrüfatının inkişafında xidmətlərinə və dövlət qulluğunda səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Allazov Bayram Osman oğlu
Hüseynov Bəyverdi Dənzi oğlu
Mirzəyeva Familə Mirzə qızı
Osmanova Sevil İdris qızı
Səlimov Əlibala Xanəhməd oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Abbasov Xaliq Dilavər oğlu
Alıyev Rahid Qoşqar oğlu
Hüseynov Bəhman Afət oğlu
Məmmədova Solmaz Tələt qızı
Sərdarlı İsmayıl Zülfüqar oğlu
Şahbazova Zərifə Şahbaz qızı
Təhməzov Ramiz Xansuvar oğlu

**"Tərəqqi" medalı ilə**

Ağayev Fizuli Ədil oğlu
Bəhrəmov Teymur Sahib oğlu
Hacıməmmədov İmralı Mahmud oğlu
Həsənov Eldəniz Əli oğlu
Həsənov Həzi Kərəm oğlu
Həsrətov Bədrəddin Hacıbəy oğlu
Hümbətov Zaur İsrafil oğlu
Hüseynov Balaeyvaz Balaqardaş oğlu
Hüseynov Oqtay Qılınc oğlu
Hüseynov Pamir Nəsurullah oğlu
Hüseynov Sədafər Misir oğlu
İsrafilov İsrafil Paşa oğlu
Qubatov Əfrasiyab Qubat oğlu
Məmmədli Əşrəf Teymur oğlu
Məmmədov Eynəddin Hüseyn oğlu
Məmmədov Fuad Hüseyn oğlu
Məmmədov İldırım Nurulla oğlu
Mirzəyev Xanlar Soltanəhməd oğlu
Paşaliyev İbrahim Süleyman oğlu
Sadıqov Talıb Hüseyn oğlu
Şeydayev Fayiq Mövlud oğlu
Tağıyev Tağı Məsim oğlu
Usubov Adil Sabir oğlu
Yağubov Araz Mirzəkişi oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## Kənd təsərrüfatı işçilərinə fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Kənd təsərrüfatının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar kənd təsərrüfatı işçisi"**

Dilbazi Gülrux Hacı qızı
Həsənov Fikrət Əyyub oğlu
Sadıxova Laləzər Qafar qızı
Seyfəddinov Savalan Şahbaba oğlu

**"Əməkdar müəllim"**

Qurbanov Xalid Hümbətəli oğlu
Məmmədov Nurəddin Nəcəf oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin V hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, vətəndaş Q.İbrahimovun məhkəmə aktlarından verdiyi şikayətə baxılaraq, icraata qəbul olunması haqqında qərardad çıxarılıb.

Şikayətə mahiyyəti üzrə, Konstitusiya Məhkəməsi Plenumunun noyabrın 23-nə təyin edilmiş iclasında baxılacaq.

**AZƏRTAC**

## Litva nəşri Dağlıq Qarabağ münaqişəsinin səbəb və nəticələrindən yazır

**Litvanın "Lietuvos aidas" nəşrində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin səbəb və nəticələri ilə bağlı məqalə dərc olunub.**

AZƏRTAC xəbər verir ki, məqalədə Dağlıq Qarabağın tarixi Azərbaycan torpağı olduğu qeyd edilir, Ermənistan-Azərbaycan münaqişəsinin son dövrlərin ən ağır faciələrindən biri olduğu bildirilir. Yazıda qeyd olunur ki, bu münaqişə nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib, minlərlə insan həyatını itirib. Bütün beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın ərazi bütövlüyü tanınır.

Məqalədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində aparılan danışıqlardan da bəhs olunur. Bildirilir ki, Ermənistanın tutduğu qeyri-konstruktiv mövqe səbəbindən danışıqlar hələ




də heç bir nəticə verməyib.

Yazıda Xocalı soyqırımı və tarixi Azərbaycan torpaqları ilə bağlı fotoşəkillər də yer alıb.

**AZƏRTAC**

*Seyid Ziya Haşemi:*

## Humanitar Forumda müzakirə olunan məsələlər aktuallığı və vacibliyi ilə seçilirdi

**Bakıda keçirilən VI Beynəlxalq Humanitar Forumda müzakirə olunan məsələlər müasir dünya üçün aktuallığı və vacibliyi ilə seçilir. Bu problemlər demək olar ki, bütün ölkələri narahat edir.**

Bu sözləri AZƏRTAC-a müsahibəsində İranın İRNA Dövlət İnformasiya Agentliyinin baş direktoru Seyid Ziya Haşemi deyib. O bildirib ki, Forum çərçivəsində dünyanın nüfuzlu media qurumlarının rəhbərləri "Yanlış məlumatlandırma siyasəti - müasir dünyada sabitliyə təhdid" mövzusu ətrafında geniş fikir mübadiləsi aparıblar. Bu gün dünya mətbuatında yer tapan yalan məlumatlar dövlətləri qarşı-qarşıya qoyur və xalqlar arasında nifaq salır. Bu kimi təhlükəli halların aradan qaldırılması istiqamətində atılan addımlar arasında VI Beynəlxalq Humanitar Forumun rolu böyükdür.

Qeyd olunub ki, bu gün həm İran, həm də Azərbaycan düşmən qüvvələrin yaydığı yalan xəbərlərdən əziyyət çəkir. Ona görə də belə xəbərlərin təsirinin minimuma endirilməsi üçün birgə səylər göstərilməlidir. Forum bu səylərin birləşməsi və vahid hədəfin vurulmasında əhəmiyyətli rol oynayır.

S.Z.Haşimi diqqətə çatdırıb ki, İran ilə Azərbaycan yaxın dost və qonşu ölkələrdir, hər iki xalq ortaq tarixə, mədəniyyətə, dinə və milli-mənəvi dəyərlərə malikdirlər. Ona görə də dünya mətbuatında İslam dini və adətləri haqqında yanlış materialların dərc edilməsi və terrorla İslamın adlarının yanaşı çəkilməsi hər iki dövlətin maraqlarına zərbə vurur. İslam dini insanları qardaşlığa, mehribanlığa, sülh və əmin-amanlığa səslədiyi halda bu müqəddəs dini terrorla eyniləşdirmək, doğrudan da dünyadakı sabitliyə təhdiddir. İran ilə Azərbaycanın media qurumları arasında yaranmış əməkdaşlıq əlaqələri bu kimi neqativ halların qarşısının alınmasına yönəlib. Məsələyə bu baxımdan yanaşdıqda görərik ki, VI Bakı Beynəlxalq Humanitar Forumu yalnız İran ilə Azərbaycanın deyil, digər dövlətlərdə də fəaliyyət göstərən media qurumlarının bir-birilə ilə əlaqələr qurmalarına şərait yaratdı. Bu əlaqələr və perspektivdəki qarşılıqlı əməkdaşlıq yalan xəbərlərin mediada yer tapmasının qarşısını səmərəli şəkildə almağa yönələcək.

**AZƏRTAC**

*Misirli iş adamı:*

## Bakı müasir və gözəl göydələnləri ilə Nyu-Yorka və Dubaya bənzəyir

**Misirin nüfuzlu iş adamlarından sayılan, eyni zamanda, geniş oxucu kütləsinə malik "Əl-Masry Əl-Yaum" qəzetinin təsisçisi Salah Diyabın Azərbaycana səfəri ilə bağlı təəssüratlarının əks olunduğu məqaləsi bu qəzetdə dərc edilib.**

Müəllif Azərbaycana ilk dəfə səfər etdiyini və bu səfərdən çox məmnun qaldığını yazır.

Əvvəllər Azərbaycan haqqında məlumatı olmadığını qeyd edən iş adamı Bakının gözəlliyindən söhbət açır. O, Heydər Əliyev Beynəlxalq Aeroportunun dünya hava limanları arasında ən gözəl və müasir aeroportlardan biri olduğunu vurğulayır. Müəllif yazır ki, Bakıdakı müasir və gözəl dizaynla bəzədilmiş göydələnləri görəndə bir tərəfdən onu Nyu-Yorka və Dubaya bənzədirsən, şəhərin mərkəzinə yaxınlaşdıqca isə tamamilə fərqli bir mənzərənin - müasirliklə yanaşı, qədimliyin də şahidi olursan. Bu mənzərə Qahirənin mərkəzində yerləşən "Qusur Abidin"lə oxşardır.

Müasirliyi və zəngin mədəniyyəti əks etdirən Bakıda binaların memarlıq üslubunun onu heyrətə gətirdiyini diqqətə çatdıran iş adamı Azərbaycanın Avropa ilə Asiya arasında yerləşdiyini, təbii sərvətlərlə zəngin olduğunu, əhalisinin sayının on milyona çatdığını, ölkədə insanların rifahının yüksək olduğunu, qeyri-neft sektorunun inkişaf etdiyini vurğulayır.

Məqalədə Azərbaycanda dövlət-din münasibətlərinin çox gözəl şəkildə tənzimləndiyi diqqətə çatdırılır. Eyni zamanda, ölkədə keçirilən beynəlxalq tədbirlərdən bəhs edilir.

**AZƏRTAC**

# Naxçıvan Qarnizonu qoşunlarının birgə təlimi keçirilib



**Oktyabrın 30-da Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin birgə taktiki-xüsusi təlimi keçirilib.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov hərbi təlimi izləyiblər.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-leytenant Kərəm Mustafayev Ali Məclisin Sədrinə hazırlıq barədə raport verib.

Sonra təlimin mövzusu, məqsədi və mərhələləri barədə məlumat verilib. Qeyd olunub ki, təlimin keçirilməsində məqsəd Naxçıvan Qarnizonunun güc strukturlarının idarəetmə orqanlarının xüsusi əməliyyatların planlaşdırılmasında uzlaşmış fəaliyyətinə nail olmaqdan, birləşmə və hissələrin idarəetmə və əməliyyat heyətinin əməliyyatların planlaşdırılması, idarə edilməsi və təşkili üzrə bilik və bacarıqlarını təkmilləşdirməkdən, eləcə də müdafiə zamanı düşmənin kəşfiyyat-diversiya orqanlarının aşkar, təcrid və məhv edilməsindən ibarətdir.

Ali Məclisin Sədri yeni hərbi təyinatlı cihazlara baxıb.

Məlumat verilib ki, Silahlı Qüvvələrin Hərbi Akademiyası və Azərbaycan Milli Elmlər Akademiyasının birgə hazırladıqları "İldırım RP-10" radiopartladıcı və "Sərhəd Sipər Sistemi" yüksək texniki göstəricilərə malikdirlər. "İldırım RP-10" radiokanal sistemi mürəkkəb relyefi olan ərazidə 3500 metr məsafədə, birbaşa görüntülü ərazidə isə 5 min metr məsafədə döyüş tapşırığını yerinə yetirir. "Sərhəd Sipər Sistemi" isə 1 kilometr məsafədə mühəndis çəpərinə quraşdırılır və radiosiqnallar vasitəsilə xəbərdaredici maneələr zolağı yaradır. Dövlət sərhədinə hər hansı müdaxilə olduğu zaman sistem onun yerini müəyyənləşdirir və mərkəzə məlumat ötürür.

Sonra komanda verilib və təlim başlayıb.

Təlimdə Əlahiddə Ümumqoşun Ordusunun xüsusi təyinatlı birləşmə və hissələrinin, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlı bölmələrinin ümumilikdə mindən artıq şəxsi heyəti, 80-ə yaxın zirehli və avtomobil texnikası, 20-dən artıq hava hücumundan müdafiə vasitələri, 40-a yaxın artilleriya qurğusu, 10-dan çox aviasiya texnikası və pilotsuz uçuş aparatları iştirak edib.

Təlimdə düşmənin genişmiqyaslı hücum əməliyyatının və diversiya-təxribat fəaliyyətlərinin qarşısının alınması üçün şərti olaraq müxtəlif döyüş tapşırıqları yerinə yetirilib. Düşmən birinci eşelon birləşmələrinin güclü müqavimətinə rast gələrək hücumu dayandırmağa məcbur olub. Əlahiddə Ümumqoşun Ordusunun xüsusi təyinatlı bölmələri Naxçıvan Qarnizonunun digər güc strukturlarının bölmələri ilə qarşılıqlı əlaqədə əks-zərbə endirib, düşmən müdafiəsinin yaxın dərinliyindəki dağ aşırımlarını, təminat və təxliyə yollarını tutub, mühüm obyektlərini məhv edib, döyüş texnikasını ələ keçirib.

Düşmənin diversiya-təxribat qrupunun zərərsizləşdirilməsi məqsədi ilə fəaliyyətə başlayan Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlıları təxribatçıları zərərsizləşdirərək tam tərkibdə ələ keçiriblər. Sərhədçilər dövlət sərhədinə basqın edən düşmənlə mübarizədə qarşıya qoyulmuş tapşırığı uğurla yerinə yetiriblər. Xüsusi təyinatlı qrup isə düşmən kolonunu mina tələsinə salaraq döyüş texnikalarını qrupun atəşi ilə məhv edib, irəliləmə və geriçəkilmə yollarını bağlayıb.

Düşmənin döyüş-nəqliyyat vertolyotlarından istifadə etməklə qoşunlarımızın müdafiə dərinliyinə hava desantı çıxarmaq cəhdinin qarşısı alınıb, Əlahiddə Əməliyyat Briqadasının xüsusi təyinatlı dəstəsi düşmənin taktiki hava desantını mühasirəyə alaraq qısa müddətdə zərərsizləşdirib. Hakim yüksəkliyin aşırımını müdafiə edən düşmənin canlı qüvvəsini məhv etmək üçün xüsusi təyinatlı qrup ərazinin relyefindən yararlanaraq düşmən mövqeyinə gizli şəkildə yaxınlaşıb. Xüsusi təyinatlı qrup sərrast atəşlərlə düşmənin canlı qüvvəsini məhv edib, müdafiə mövqeyini ələ keçirib və hakim yüksəklik istiqamətində digər qrupların fəaliyyətinə əlverişli şərait yaradıb. Dağ aşırımının digər yamacını ələ keçirmək tapşırığı almış xüsusi təyinatlı qrup təyin edilmiş rayona zirehli "SANDCAT" avtomobilləri ilə hərəkət edib. Xüsusi təyinatlı qrup yüksəklikdə yerləşən düşmən mövqeyini ələ keçirməklə hakim yüksəkliyə hücum edən bölmələrin cinahlardan təhlükəsizliyinə və taktiki desantın hakim yüksəkliyə endirilməsinə şərait yaradıb.

Sərf edilmiş döyüş sursatlarının yenisi ilə təmin olunması, yaralıların təxliyə edilməsi, partlamayan və partlayış-təhlükəli mərmilərin tapılaraq zərərsizləşdirilməsi üçün Fövqəladə Hallar Nazirliyinin pirotexniki taqımı, kinoloqları və xilasediciləri qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetiriblər. Alpinistlər əlverişli istiqamətlərdə hakim yüksəkliyə qalxaraq bölmələrimizə müxtəlif döyüş sursatları çatdırıb, yaralanmış şəxsi heyət təxliyə olunub.

Təlimin gedişində düşmənin ehtiyatlarına aviasiya zərbəsi və hakim yüksəkliyə taktiki hava desantının endirilməsi göstərişi verilib. "SU-25" təyyarələri hədəfi qısa müddətdə məhv edib, "Mİ-35M" vertolyot manqası düşmənin hakim yüksəklikdə yerləşən mövqelərinə atəş zərbələri endirib. Vertolyotlardan endirilən taktiki hava desantı qrupları mühasirəyə aldıqları düşməni məhv ediblər. "KORD" və "NSVT" pulemyotları ilə silahlandırılmış "KOBRA" və "SANDCAT" yüngül zirehli transportyorların heyətləri düşmənin atəş nöqtələrini susdurublar. Snayper cütlükləri düşmənin döyüş sahəsində komanda heyətini, rabitəçiləri və əsas atəş vasitələrini aşkar edərək zərərsizləşdiriblər. Xüsusi təyinatlı qruplar isə Azərbaycan istehsalı olan "ZƏFƏR" tapançalarından və digər atıcı silahlardan istifadə edərək düşmənin yaxın məsafələrdəki canlı qüvvəsini məhv edib.

Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin qarşılıqlı əlaqədə birgə fəaliyyəti nəticəsində təlimdə qarşıya qoyulmuş məqsədlərə tam nail olunub, yaradılmış hədəf qrupları və maketləri məhv edilib.

Xüsusi təyinatlı qruplar tərəfindən təlim ərazisindəki ən yüksək zirvədə üçrəngli bayrağımız qaldırılıb və işğaldan azad edilmiş Günnüt kəndi ilə bağlı "Günnüt Azərbaycan əsgərinin rəşadət əzmidir" şüarı nümayiş olunub.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev təlimin başa çatması barədə raport verdikdən sonra təlimdə iştirak edən şəxsi heyətlə görüş olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov hərbi təlimin hadisəsiz və uğurla başa çatması münasibətilə zabit, gizir və əsgərləri təbrik edib, təlimdə iştirak edən bütün şəxsi heyətə təşəkkürünü bildirərək deyib: Bu il ölkəmizdə Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul olunmasının 27-ci ildönümü qeyd olundu. Hər bir dövlətin inkişafı üçün onun müstəqilliyi vacib şərtdir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki: "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, əbədi olması bundan da çətindir".

Ali Məclisin Sədri deyib: Ordusu olmayan dövlət müstəqil ola bilməz. Güclü ordu güclü dövlətçilik, sabitlik və inkişaf deməkdir. Azərbaycan xalqının heç bir zaman öz müstəqilliyindən geri çəkilməyəcəyini bəyan edən Ümummilli Liderimiz deyirdi ki, "Azərbaycan təkcə bu gün yox, gələcəkdə də torpaqlarını, dövlət müstəqilliyini qorumaq üçün güclü orduya malik olmalıdır". Ulu Öndərimizin ordu quruculuğu sahəsində başladığı işi uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev dövlət müstəqilliyimizin qarantı olan güclü ordu yaratmışdır. Bu gün ordumuzun maddi-texniki bazasının gücləndirilməsi və döyüş hazırlığının artırılması istiqamətində kompleks tədbirlər görülür.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasının da müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə xüsusi diqqət yetirilir. Keçirilən hərbi təlim də göstərdi ki, Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasındakı ordu, birləşmə və hissələri istənilən döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirməyə qadirdir. Ordumuz ona görə güclüdür ki, şəxsi heyətdə yüksək vətənpərvərlik var. Vətənpərvərlik sahib olduğumuz ən ali dəyərimizdir. Bu gün keçirilən hərbi təlimdən çıxarılan konkret nəticə də ondan ibarətdir ki, Silahlı Qüvvələrimizin hərbi qulluqçuları yüksək döyüş hazırlığı ilə yanaşı, həm də yüksək vətənpərvərliyə malikdirlər.

Ali Məclisin Sədri bir daha hərbi təlimin uğurla başa çatması münasibətilə təşkilatçılara, bütün şəxsi heyətə təşəkkür edib, çıxışını ölkə Prezidentinin fikirləri ilə tamamlayıb: "Bizim ordumuz bizim qürurumuzdur".

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov təlimdə qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirdiklərinə görə şəxsi heyətləri təbrik edərək deyib: Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər sırasında Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyinə xüsusi diqqət yetirir. Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsində görülən işlər isə Silahlı Qüvvələrin buradakı ordu, birləşmə və hissələrində xidmətin və döyüş hazırlığının yüksək səviyyədə təşkilinə imkan verir. Bu gün Əlahiddə Ümumqoşun Ordusu ən müasir silah, texnika və digər avadanlıqlarla təmin edilmişdir. Keçirilən təlim bunu bir daha təsdiq etdi. Muxtar respublikadakı bütün güc strukturlarının xüsusi təyinatlıları tərəfindən qarşıya qoyulan tapşırıqlar uğurla yerinə yetirildi, şəxsi heyət yüksək peşəkarlıq nümayiş etdirdi. Artıq düşmən Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun, eləcə də Silahlı Qüvvələrin muxtar respublikadakı digər birləşmə və hissələrinin yüksək döyüş hazırlığından, müasir silah və texnika təminatından qorxur və bunu etiraf edir.

Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-leytenant Kərəm Mustafayev çıxış edərək deyib ki, təlimdə Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələri tam döyüşə hazır vəziyyətə gətirilib, bölmələr döyüş uzlaşması keçib və tapşırıqlar uğurla yerinə yetirilib. Xüsusi təyinatlıların fəaliyyət ardıcıllığının vahid qaydada qəbul edilməsində, eləcə də radiotexniki, radioelektron, məlumat, xüsusi və qoşun kəşfiyyatlarının aparılmasında əməli təcrübə qazanılıb. Kərəm Mustafayev təlimdə iştirak edən şəxsi heyət adından minnətdarlıq edib, bundan sonra da bütün əmr və tapşırıqların uğurla yerinə yetiriləcəyini bildirib.

Ali Məclisin Sədri təlimdə fərqlənən zabit, gizir və əsgərləri qiymətli hədiyyələrlə mükafatlandırıb.

Gizir Bəhruz Məmmədov və zabit Vüqar Məlikov minnətdarlıq edərək deyiblər ki, bu gün muxtar respublikada hərbi xidmət nümunəvi təşkil olunub. Hərbi hissələrin maddi-texniki təminatı, əsgərlərin məişət və xidməti şəraitinin yaxşılaşdırılması, eləcə də zabit-gizir ailələrinin yaşayışı üçün ardıcıl tədbirlər görülüb. Yaradılan şərait və bu cür təlimlərin keçirilməsi mübarizə əzmimizi və döyüş ruhumuzu daha da artırır. Əmin edirik ki, düşmənin istənilən təxribatının qarşısını almağa tam hazırıq.

Şəxsi heyət birlik və bərabərliyin ifadəsi olan "Hamı bir nəfər, bir nəfər hamı üçün" şüarını səsləndirib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov xüsusi təyinatlıların təlim mərkəzində yaradılan şəraitlə maraqlanıb.

Bildirilib ki, təlim mərkəzində şəxsi heyətin yaşayışı, qidalanması və xidmətin aparılması üçün lazımi şərait var. Burada yataq yerləri, əşya və ərzaq anbarları, yeməkxana və məişət guşələri istifadəyə verilib. Görülən işlər istənilən hava şəraitində təlimlərin uğurla həyata keçirilməsinə imkan verir.

Ali Məclisin Sədri Naxçıvan Qarnizonu qoşunlarının birgə taktiki-xüsusi təlimlərinin bundan sonra da davam etdirilməsi və qarşılıqlı fəaliyyətin təşkili barədə müvafiq tapşırıqlar verib.

**AZƏRTAC**

# Azərbaycan ilə Qazaxıstan arasında ticarət, investisiya qoyuluşu sahələrində əməkdaşlıq məsələləri müzakirə edilib

**Astanada səfərdə olan Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Qazaxıstanın investisiyalar və inkişaf naziri Jenis Kasimbek arasında görüş keçirilib.**



AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında ticarət, investisiya qoyuluşu, ixrac və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub.

Qeyd edilib ki, 2018-ci ilin 8 ayında iki ölkə arasında ticarət dövriyyəsi 2 dəfə artaraq 168 milyon dollar olub. 2017-ci ilin eyni dövrü ilə müqayisədə bu rəqəm 81,5 milyon dollar olub.

Pərviz Şahbazov hökumətlərarası komissiyanın iclaslarının keçirilməsinin, müxtəlif sahələrdə tərəfdaşlar arasında əlaqələrin qurulmasının və iki ölkənin işgüzar dairələrinin görüşlərini təşkil etməklə əlaqələrin dərinləşməsinin vacibliyini vurğulayıb.

Qeyd edək ki, oktyabrın 31-də Astanada Azərbaycan-Qazaxıstan ticarət-iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 15-ci iclası keçiriləcək.

**AZƏRTAC**

# Azərbaycan, Türkiyə və İran xarici işlər nazirlərinin İstanbulda üçtərəfli görüşü olub



**Oktyabrın 30-da İstanbulda Azərbaycan, Türkiyə və İran xarici işlər nazirlərinin VI üçtərəfli görüşü keçirilib.**

AZƏRTAC xəbər verir ki, nazirlər Elmar Məmmədyarov, Mövlud Çavuşoğlu və Məhəmməd Cavad Zərif İstanbulun tarixi Dolmabaxça sarayında bir araya gəliblər. Görüşdə İstanbul Bəyannaməsi imzalanıb.

Sonra nazirlər görüşün yekunları ilə bağlı mətbuat konfransı keçiriblər.

Türkiyə Cümhuriyyətinin quruluşunun 95-ci ildönümü münasibətilə açılışı olan İstanbul Hava Limanındakı mərasimdə iştirak etdiklərinə görə həmkarlarına təşəkkürünü ifadə edən nazir Mövlud Çavuşoğlu üçtərəfli görüşdə qəbul olunan İstanbul Bəyannaməsi barədə məlumat verdi. Nazir diqqətə çatdırıb ki, Bəyannamədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn normaları çərçivəsində, Azərbaycanın ərazi bütövlüyü şərti ilə həll olunmasının vacibliyi, eləcə də üç ölkə arasında əməkdaşlıq əlaqələrinin genişlənməsinə dair yeni yolların axtarılması və s. məsələlər əksini tapıb. Bundan başqa, Türkiyə və İranın Bakı şəhərinin 2025-ci ildə ümumdünya sərgisinə namizədliyini tam şəkildə dəstəklədiyini qeyd edən nazir əminliklə bildirib ki, Azərbaycan bu istəyinə nail olacaqdır.

İstanbul Hava Limanının açılışı münasibətilə təbriklərini çatdıran nazir Elmar Məmmədyarov Azərbaycanın ərazi bütövlüyünü dəstəklədikləri üçün hər iki həmkarına səmimi minnətdarlığını ifadə edib. Üç ölkə arasında həyata keçirilən enerji və nəqliyyat dəhlizlərinin əhəmiyyətindən danışan azərbaycanlı nazir bildirib ki, yaxın gələcəkdə Astara (İran)-Rəşt (İran) dəmir yolunun tikintisi gerçəkləşərsə bu, Bakı-Tbilisi-Qars, və Şimal-Cənub dəmir yolları üçün daha böyük perspektivlər yaradacaq.

Görüşün əhəmiyyəti barədə fikir və mülahizələrini bölüşən nazir Məhəmməd Cavad Zərif qeyd edib ki, ölkəsi Dağlıq Qarabağ probleminin beynəlxalq hüququn normaları çərçivəsində həllinə tərəfdardır. Azərbaycan, Türkiyə və İran əməkdaşlıq əlaqələrinin siyasi iradə nəticəsində ortaya çıxdığını deyən iranlı nazir diqqətə çatdırıb ki, münasibətlərin inkişafı bölgədə sülhə, sabitliyə və inkişafa böyük töhfədir.

Məlumata əsasən, üçtərəfli görüş çərçivəsində regional əməkdaşlığın ümumi maraqlar üzrə inkişaf perspektivləri, regional sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, həmçinin əvvəlki görüşlərdə qəbul olunan qərarların icra vəziyyətinə dair səmərəli fikir mübadiləsi aparılıb. Nazirlər ifadə ediblər ki, tərəflər üçtərəfli əməkdaşlığın genişlənməsi, ortaq maraqların qorunması, yeni-yeni layihələr sayəsində regionun inkişafına töhfələr verməkdə iradəlidir. Vurğulanıb ki, enerji, nəqliyyat və ticarət əlaqələrinin daha da inkişafı üçün növbəti görüşə qədər tərəfləri təmsil edən mütəxəssislərin birgə işləməsinə ehtiyac var. Diqqətə çatdırılıb ki, Azərbaycanın və İranın enerji mənbələri, eləcə də regionun tranzit imkanları üç ölkənin inkişafı üçün böyük potensial yaradıb. Bundan başqa, qarşılıqlı ticarət əlaqələrinin artırılması məsələsi də tərəfləri maraqlandıran ciddi məsələdir.

Nazirlər jurnalistləri maraqlandıran sualları cavablandırıblar.

Qeyd edək ki, nazirlər VII görüşün İranda keçirilməsi barədə razılıq əldə ediblər.

**AZƏRTAC**

# Azərbaycan və Türkmənistan arasında nəqliyyat-tranzit sahəsində əlaqələrin genişləndirilməsinə dair müzakirələr aparılıb

**Oktyabrın 30-da iqtisadiyyat naziri Şahin Mustafayev ölkəmizdə səfərdə olan Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini Məmmetxan Çakıyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, əvvəlcə nümayəndə heyəti Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub.

Sonra Türkmənistan nümayəndə heyəti Şəhidlər xiyabanına gələrək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Görüşdə ölkələrimiz arasında iqtisadi əlaqələrin, o cümlədən nəqliyyat-tranzit sahəsində əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Nazir Şahin Mustafayev Azərbaycan və Türkmənistanın dost ölkələr olduğunu, xalqlarımızı ortaq tarixin, dil, din və ənənələrin birləşdirdiyini, dövlət başçılarının siyasi iradəsi nəticəsində əlaqələrimizin inkişaf etdiyini, qarşılıqlı səfərlərin münasibətlərin genişlənməsində önəmini, 2017-ci ildə iki ölkə arasında imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannamənin əməkdaşlığın inkişafında əhəmiyyətini vurğulayıb. Bildirilib ki, Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini Məmmetxan Çakıyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri, nümayəndə heyətinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən qəbul edilməsi və aparılmış müzakirələr Azərbaycan-Türkmənistan əməkdaşlığının inkişafına mühüm töhfəsini verəcək.

İqtisadiyyat naziri qeyd edib ki, hazırda Azərbaycan-Türkmənistan əlaqələri müxtəlif sahələrdə inkişaf edir və bu əməkdaşlığın mühüm istiqamətlərindən biri də nəqliyyat-tranzit əlaqələridir. Hər iki ölkənin nəqliyyat-tranzit potensialı böyükdür və bu sahədə əlverişli infrastruktur yaradılıb. Bu infrastrukturdan və potensialdan istifadə olunmaqla nəqliyyat-tranzit sahəsində əlaqələrin inkişafı üçün imkanlar genişdir. Nazir Şahin Mustafayev bu sahədə əməkdaşlığın inkişafına, məlumat mübadiləsinə, nəqliyyat və logistika strukturları arasında birbaşa və uzunmüddətli əlaqələrin genişləndirilməsinə dair fikirlərini bölüşüb, Azərbaycan-Türkmənistan nəqliyyat marşrutunun təhlükəsiz və əlverişli olduğunu, bu marşrutdan digər ölkələrin də istifadə edə biləcəyini vurğulayıb.

Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini Məmmetxan Çakıyev ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdiyini, bugünkü görüşün də əlaqələrin genişlənməsi, xüsusilə nəqliyyat-tranzit sahəsində əlaqələrin inkişafı baxımdan əhəmiyyətli olacağını qeyd edib, əməkdaşlıq imkanlarına dair fikirlərini bildirib.

Görüşdə xarici işlər nazirinin müavini Xələf Xələfov, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev, Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi Həbib Həsənov, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı"nın baş direktoru Taleh Ziyadov, Dövlət Mülki Aviasiya Agentliyinin direktoru Arif Məmmədov iştirak ediblər.

Görüş nəqliyyat sektorunun müxtəlif sahələri üzrə ikitərəfli müzakirələrlə davam edib.

**AZƏRTAC**

# Ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət



**Bakıda keçirilən Asiya Ombudsmanlar Assosiasiyasının Direktorlar Şurasının 21-ci iclasının iştirakçıları oktyabrın 30-da Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyublar.**

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra qonaqlar Şəhidlər xiyabanına gedərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən tədbir iştirakçılarına Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.



**AZƏRTAC**

# Bakıda Asiya Ombudsmanlar Assosiasiyasının Direktorlar Şurasının 21-ci iclası keçirilib

**Oktyabrın 30-da Bakıda Asiya Ombudsmanlar Assosiasiyasının (AOA) Direktorlar Şurasının 21-ci iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda AOA-nın prezidenti, Pakistanın ombudsmanı Syed Tahir Şahbaz, habelə Assosiasiyanın üzvü olan ölkələrin Direktorlar Şurasındakı təmsilçiləri - Yaponiyanın, Çinin, İndoneziyanın, Honq-Konqun, İranın, Malayziyanın, Rusiya Federasiyası Tatarıstan Respublikasının ombudsmanları, bir sıra dövlət qurumlarının və KİV-lərin nümayəndələri iştirak ediblər.



Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Elmira Süleymanova çıxış edərək tədbirin məqsədi barədə məlumat verib.

Daha sonra iclasın birinci sessiyasında AOA-nın ötən ilin fəaliyyətinin yekun hesabatı dinlənilib və növbəti illərə dair fəaliyyət istiqamətləri müzakirə edilib.

İkinci sessiyada Azərbaycan ombudsmanının təklifi ilə Dayanıqlı İnkişaf Məqsədlərində təsbit olunmuş 10-cu məqsəd üzrə "Ölkədaxili və ölkələrarası bərabərsizliyi azaltmaq", Çin ombudsmanının təklifi ilə "Gələcəkdə qarşılıqlı əməkdaşlığın təşviqi üçün faydalı fikir mübadiləsi" mövzuları üzrə interaktiv müzakirələr aparılıb.

Qeyd edək ki, ombudsman Elmira Süleymanova 2003-cü ildən AOA-nın üzvüdür və 2015-ci ilin noyabr ayında növbəti dörd il üçün həmin qurumun vitse-prezidenti seçilib.

İclasda çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova deyib ki, Azərbaycan milli inkişaf strategiyasını qlobal Dayanıqlı İnkişaf Məqsədləri ilə eyniləşdirmək üçün səylər göstərir.

Azərbaycanda cəmiyyətin parlaq gələcəyi üçün bir neçə dövlət proqramı və strategiyası həyata keçirilir. Təhsilin inkişafı, qadın problemləri ilə bağlı proqramlar, Milli Uşaq Strategiyasını bu siyahıya daxil etmək olar. Dövlət, həmçinin səhiyyə sisteminin hamıya əlçatanlığını, hər bir vətəndaşa eyni səviyyədə xidmət göstərilməsini təmin etmək üçün bu sahəyə böyük diqqət ayırır.

Komitə sədri bildirib ki, Azərbaycan Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün bir sıra problemlərlə üzləşir. Onlardan biri ölkəmizin Dağlıq Qarabağ bölgəsinin və ətraf 7 rayonunun işğal edilməsi, bir milyon qaçqın və məcburi köçkünün olmasıdır. Digəri isə bizim əlimizdə fərqli yaş və gender qrupları, regional və ətraf mühitin mühafizəsi barədə kifayət qədər detallı informasiyanın olmamasıdır.

Hicran Hüseynova vurğulayıb ki, Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq üçün qadınların cəmiyyətin bütün sahələrində, həmçinin siyasi və iqtisadi sahələrdə aktiv iştirakı vacibdir.

Daha sonra iclas müzakirələrlə davam edib.

**AZƏRTAC**

# Azərbaycanın xarici işlər nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti Sofiyaya səfərə yola düşüb

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun rəhbərlik etdiyi nümayəndə heyəti Sofiyaya rəsmi səfərə yola düşüb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətinə Milli Məclisin, Energetika Nazirliyinin, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təmsilçiləri daxildir.

Səfər çərçivəsində Elmar Məmmədyarovun Bolqarıstanın yüksək səviyyəli rəsmiləri ilə görüşü, eləcə də Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında Strateji Dialoqun birinci iclası keçiriləcək.

**AZƏRTAC**

# Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Londonda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan tədbir keçirilib





**Böyük Britaniyanın paytaxtı Londonda Heydər Əliyev Fondunun və Azərbaycanın bu ölkədəki səfirliyinin təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə həsr olunan rəsmi qəbul keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, İngiltərə-Azərbaycan Cəmiyyətinin həmsədri Nərgiz Paşayeva, Böyük Britaniyada akkreditə olunmuş diplomatik korpusun, dövlət qurumlarının və parlamentin nümayəndələri, iş adamları iştirak ediblər.

Azərbaycanın Böyük Britaniyadakı səfiri Tahir Tağızadə çıxış edərək müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixi və fəaliyyəti dövründə əldə etdiyi nailiyyətlər barədə məlumat verib. Qeyd edib ki, cəmi 23 ay ömrü olan respublika qısa müddətdə ciddi uğurlara imza atıb, dünyanın aparıcı dövlətləri ilə diplomatik münasibətlər qurub, qadınlara ilk dəfə seçki hüququ verib. Diplomat 1991-ci ildə müstəqilliyini bərpa edən respublikamızın bu gün dünyada uğurlu daxili və xarici siyasət yürüdən, inkişaf edən demokratik dövlət kimi tanındığını vurğulayıb.

Azərbaycanla Böyük Britaniya arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə sürətlə inkişaf edən əlaqələrdən danışan Tahir Tağızadə Böyük Britaniyanın Azərbaycan üçün etibarlı tərəfdaş olduğunu qeyd edib, hər iki ölkə arasında son 27 il ərzində möhkəm əməkdaşlığın qurulduğunu diqqətə çatdırıb.

Təhsil sahəsində əməkdaşlıqdan bəhs edən səfir Oksford Universiteti nəzdində fəaliyyət göstərən Nizami Gəncəvi Mərkəzinin uğurlarından, o cümlədən akademik Nərgiz Paşayevanın 2018-ci il oktyabrın 11-də Oksford Universitetinin Kansleri Lord Patten Barnesin rəhbərlik etdiyi Xeyriyyəçilər Komitəsinin üzvlüyünə təntənəli surətdə qəbul olunmasından söhbət açıb. O, həmçinin Oksford Universiteti rəhbərliyinin və Elmi Şurasının qərarı ilə Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun adının Kanslerin Xeyriyyəçilər Komitəsinin daimi üzvü kimi dünya şöhrətli alimlər, ictimai xadimlər və nüfuzlu təşkilatlarla yanaşı, XVII əsrə aid Klarendon binasının xatirə lövhəsinə həkk olunmasından danışıb.

Tədbirdə Azərbaycanın müxtəlif beynəlxalq platformalarda Böyük Britaniya ilə birgə fəaliyyət göstərdiyi bildirilib, Prezident İlham Əliyevin Londona son səfərinin ikitərəfli əlaqələrin inkişafına töhfə verdiyi vurğulanıb.

Böyük Britaniya hökumətinin Lordlar Palatasının üzvü, Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson da tədbir iştirakçılarını və xalqımızı Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə təbrik edib. O, 100 il əvvəl Şərqdə ilk demokratik respublikanın qurulmasını mühüm tarixi hadisə kimi səciyyələndirib. Azərbaycan Xalq Cümhuriyyətinin nailiyyətləri arasında qadınlara səsvermə hüququnun verilməsini xüsusi vurğulayan Baronessa Emma Nikolson ölkələrimiz arasındakı ikitərəfli münasibətlərin inkişaf səviyyəsindən məmnunluğunu bildirib. Qeyd edib ki, Azərbaycanla Böyük Britaniya arasında təkcə enerji üzrə deyil, təhsil, mədəniyyət, hərbi və digər sahələrdə də münasibətlər inkişaf edir. İkitərəfli diplomatik əlaqələrə nəzər salan Lordlar Palatasının üzvü ölkəsinin Azərbaycanla bütün sahələrdə əməkdaşlığının səviyyəsindən razı olduğunu bildirib və bu əlaqələrin daha da genişlənəcəyinə ümid etdiyini vurğulayıb. Azərbaycan Prezidentinin Londona son səfərini xüsusi qeyd edən xanım Nikolson bu səfərin ikitərəfli əlaqələrin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib.





Tədbir çərçivəsində Heydər Əliyev Fondu tərəfindən təşkil edilən sərgidə Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə dair foto və sənədlər, video və audiomateriallar, Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə həsr olunan sənədli film nümayiş etdirilib, musiqi proqramı təqdim olunub.

Baronessa Emma Nikolson AZƏRTAC-a müsahibəsində deyib:

-Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin Londonda qeyd edilməsi çox mühüm hadisədir. Biz Azərbaycanda demokratiyanın təntənəsinə yığışmışıq. Bu gün Azərbaycanla Böyük Britaniya arasında mövcud əlaqələr yüksək səviyyədədir. Bir daha təbriklərimi çatdırıram.

Kensington və Çelsi bələdiyyəsinin müşaviri Gerard Hargreaves qeyd edib:

-Təmsil etdiyim qurum adından Azərbaycanı 100 illik yubiley münasibətilə təbrik edirəm. Bu tədbirdən zövq almaqla yanaşı, ölkənizin tarixi haqqında bir sıra məlumatlar öyrəndim. Burada nümayiş olunan filmdə Azərbaycanın coğrafiyası, mədəniyyəti, zəngin təbiəti haqqında ətraflı məlumat verilib. Bir daha Azərbaycan xalqını təbrik edirəm.

Britaniya parlamentinin Lordlar Palatasının üzvü Devid Çarlz Evans bildirib:

-Burada olmaq böyük şərəfdir. Azərbaycan xalqını bu önəmli gün münasibətilə təbrik edirəm. Ölkənizə növbəti 100 illikdə də uğurlu inkişaf arzulayıram. Londonda Azərbaycanla bağlı keçirilən tədbirlərdə mütəmadi iştirak etməkdən şərəf duyuram. İndi də burada olduğum üçün çox şadam. Möhtəşəm tədbirdir.

Lordlar Palatasının digər üzvü Con Devid Kilkluni deyib:

-Mən 20 ildir ki, Azərbaycanın dostu olmaqdan şərəf duyuram. Həm Avropa Parlamentində, həm də Avropa Şurasında çalışdığım illərdə həmişə Azərbaycanın haqq səsini müdafiə etmişəm. Ölkəniz Avropa Şurasına üzv qəbul olunanda mən bütün proseslərin bilavasitə iştirakçısı idim. Ondan sonra ölkənizdə mütəmadi səfərlərdə olmuşam. İllər ərzində Azərbaycanın böyük inkişaf yolu keçdiyini görmək çox xoşdur. Ölkənizlə bağlı xüsusi məqamı qeyd etmək istərdim: Azərbaycanda dini tolerantlıq yüksək səviyyədədir. Bu, dünyaya nümunə ola biləcək bir məqamdır.

Milli Məclisin Azərbaycan-Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Cavanşir Feyziyev bildirib:

-Bugünkü tədbir Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən çoxsaylı tədbirlərdən biridir. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş rəsmi qəbul və sərgi Cümhuriyyətimizin tarixi ilə bağlı bütün məlumatların Britaniya ictimaiyyətinə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

**AZƏRTAC**

## *Avstraliyanın Dubay Vollonqonq Universitetinin prezidenti:*

# UNEC-lə əməkdaşlığa xüsusi önəm veririk

Avstraliyanın Dubay Vollonqonq Universitetinin prezidenti, professor Mohamed Salem ilə Qlobal Karyera İnstitutunun və Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin sədri Orxan Həsənoğlu UNEC-də olub.

UNEC-in rektoru, professor Ədalət Muradov qonaqlara regionun 4 dildə təhsil verən ən böyük iqtisadyönümlü universiteti barədə məlumat verib. UNEC-in dünyanın nüfuzlu ali təhsil müəssisələri ilə bakalavr, magistr pilləsi üzrə ikili diplom və mübadilə proqramlarından söz açan rektor, bu istiqamətdə İslam ölkələrinin universitetləri ilə də əməkdaşlıq etməkdə maraqlı olduğunu bildirib. Rektor UNEC-də dünyanın bir çox dövlətləri ilə yanaşı, islam ölkələrindən də əcnəbi tələbələrin təhsil aldığını xüsusi vurğulayıb.



UNEC-də olmaqdan məmnunluğunu bildirən Mohamed Salem Vollonqonq Universitetinin təhsil imkanlarından danışıb. Bildirib ki, ölkənin ən qocaman ali təhsil müəssisəsi olan Vollonqonq regionda elmi tədqiqatların tədrisi və innovasiyaların tətbiqi istiqamətində aparıcı mövqe tutur. Azərbaycanın ali təhsil müəssisələri ilə əlaqələrin genişləndirilməsində maraqlı olduğunu bildirən M.Salem, bu istiqamətdə UNEC-lə əməkdaşlığa xüsusi önəm verdiyini vurğulayıb. O, rəhbəri olduğu universitetə qəbulda hər il azərbaycanlı tələbələrin də yer aldığını qeyd edib.

Təmsil etdiyi qurumun fəaliyyət istiqamətlərindən bəhs edən O.Həsənoğlu beynəlxalq konfrans, forum və ortaq layihələrin həyata keçirilməsində UNEC-lə əməkdaşlıq etməyin hər iki tərəf üçün uğurlu olacağını bildirib.

Görüşdə universitetlər arasında bakalavr, magistratura və doktorantura pilləsi üzrə ikili diplom proqramlarının təşkili barədə fikir mübadiləsi aparılıb. Eyni zamanda tələbə-müəllim mübadiləsi, MBA və EMBA proqramları istiqamətində birgə təşəbbüslər, İslam maliyyəsi və bankçılığı sahəsində araşdırmaların aparılması, qonaq müəllimlərin mühazirələrinin təşkili də müzakirə mövzusu olub. ■

# Ordum varsa, yurdum var

Bakının Nizami rayonunda gənclərin vətənpərvərlik tərbiyəsinə, torpağa bağlı olmasına, ata-babaların şanlı döyüş ənənələrinə sadiq qalmalarına maksimum səy göstərilir. Bir sözlə, rayonda vətənpərvər gənclərin yetişdirilməsi, dünya təcrübəsinə əsaslanan yeni nəslin hərtərəfli inkişafı üçün təqdirəlayiq işlər görülür.

Oktyabrın 1-dən ölkəmizdə gənclərin hərbi xidmətə çağırışına başlanmışdır. Qızıl payız günlərində Vətənə sipər oğullar müharibə və əmək veteranlarının, rayon ictimaiyyəti nümayəndələrinin xeyir-duası ilə ordu sıralarına yollanır, onlar mərasim iştirakçılarını əmin edirlər ki, əsgəri xidmətdə olduqları dövrdə hərbi texnikanın sirlərini mükəmməl öyrənəcək, Vətənin ərazi bütövlüyünü ləyaqətlə qoruyacaqlar.

Qəlbləri oxşayan bir payız səhərində biz Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Nizami rayon idarəsində olduq. Müasir tipli, 3 mərtəbəli, geniş əraziyə malik olan idarə "Qara Qarayev" metrosunun yaxınlığında yerləşir. Burada gəncləri hərbi-vətənpərvərlik tərbiyəsinə səsləyən və zövqlə hazırlanmış müxtəlif şüar və diaqramlar diqqəti cəlb edir.

Ordu sıralarına yola düşən bir qrup gənc idarənin çağırış şöbəsinin baş zabiti Mübariz Süleymanovun əhatəsində idi. O, gənclərə lazımi tövsiyələr verir və qürur hissi ilə bildirirdi ki, bu gün Azərbaycanın qüdrətli ordusu vardır. Ordumuzun gücü, mübarizliyi 2016-cı ilin aprel döyüşlərində bir daha nümayiş etdirildi. Yurdumuza uzanan qara əllər dağlandı, mənfur düşmənimiz sayılan erməni quldurlarına sarsıdıcı zərbələr endirildi, onlar məkrli niyyətlərini həyata keçirə bilmədilər. Yəqin ki, sizin kimi mətin, cəsur oğulların rəşadəti sayəsində çox tezliklə işğal altında olan torpqlarımız azad olunacaq, üçrəngli bayrağımız Şuşada, Kəlbəcərdə, Laçında, Qubadlıda və işğal altında olan digər qədim Oğuz ellərində dalğalanacaqdır.

Ordu sıralarına yolasalınma mərasimində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Nizami rayon idarəsinin rəisi, polkovnik-leytenant Kənan Məmmədov çıxış edərək ilk öncə tədbirə qatılan insanları salamladı və sonra qəlbindən süzülüb gələn xoş sözləri onlarla yarı böldü:

—Dövlət müstəqilliyimizin, milli təhlükəsizliyimizin, xalqın əmin-amanlıq içərisində yaşamasının təminatçısı olan ordumuz son illərdə daha da möhkəmlənmiş, qüdrətlənmiş, mütəşəkkil hərbi qüvvəyə çevrilmişdir. Azərbaycan ordusu regionun ən güclü ordusudur və istənilən təcavüzün qarşısını almağa, hücum tapşırığını yerinə yetirməyə qadirdir. Bu gün ölkə başçısının fəaliyyətində ordu quruculuğu məsələləri prioritetdir. Ordunun yaranması, formalaşması bizim bütün həyatımızda müstəsna yer tutur.

Kənan Məmmədov çıxışının sonunda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin belə bir fikrini xatırlatdı: **"Azərbaycan müharibə şəraitində yaşayır və müharibə hələ bitməyibdir. Biz hər an doğma torpaqlarımızı azad etməyə hazır olmalıyıq. Biz hər an hazır olmalıyıq ki, öz torpaqlarımızı işğalçı qüvvələrdən hərbi yolla azad edək. Bu qələbə gününü görəcəyik. Bizim bayrağımız bu gün işğal edilmiş torpaqlarda dalğalanmalıdır və dalğalanacaq. Şuşada, Xankəndidə milli**



**bayrağımız dalğalanmalıdır və dalğalanacaq!".**

Gənclərin əsgəri xidmətə yolasalınma mərasimində Təbriz Əliyev validenylər adından danışaraq ordu sıralarına yollanan oğullara öz tövsiyələrini verdi. Bildirdi ki, hər biriniz xidmət dövründə Bayrağına, Himninə, Gerbinə, Andına sədaqətli olmalısınız.

Vaxt çatır. Meydan yenidən musiqiyə verilir. Əllərində gül-çiçək tutmuş gənclərdən Vüqar Musayev, Zaur Abdullayev, Ramil Heydərli, İlqar Qədirov, Süleyman Verdiyev, Elşən Sultanov və başqaları avtobusda yerlərini tutub ordu sıralarına yollanırlar.

**Qədir ASLAN,**
**"Respublika".**

# Korrupsiyaya qarşı mübarizədə tədrisin rolu mövzusunda tədbir

**2018-ci il oktyabr ayının 30-da Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlığa qarşı Baş İdarəsinin Korrupsiya və İqtisadi Cinayətlər İdarəsi, Bakı Dövlət Universiteti, o cümlədən universitetin hüquq fakültəsi və Moskva Dövlət Beynəlxalq Əlaqələr Universiteti ilə birgə korrupsiyaya qarşı mübarizə sahəsində tədris seminarı keçirilib.**

Bakı Dövlət Universitetinin akt zalında keçirilən tədbirdə BMT-nin nüfuzlu ekspertləri, Rusiya Federasiyası, Ukrayna, Gürcüstan, Finlandiya, Belarus Respublikası, Moldova, Tacikistan, Türkiyə, Estoniya, Latviya, Qırğızıstan, Özbəkistan və digər ölkələr daxil olmaqla 25 xarici ekspert iştirak etmişdir. Seminarın əsas məqsədi Şərqi Avropa və Mərkəzi Asiya ölkələrindən olan mütəxəssis və müəllimlərin peşəkar və yüksək səviyyəli antikorrupsiyaya aid tədrisini keçirmək imkanlarını daha da gücləndirmək və həmçinin tədbirdə iştirak edən ekspertlər arasında fikir və təcrübə mübadiləsini təşkil etməkdir.





Tədbiri giriş sözü ilə açan Bakı Dövlət Universitetinin hüquq fakültəsinin dekanı, hüquq elmləri doktoru, professor Əmir Əliyev əvvəlcə xarici ölkələrdən nümayəndə qismində iştirak edən qonaqları, tədbir iştirakçılarını salamladı və bugünkü tədbirin əhəmiyyətindən, son dövrlər Azərbaycanda bu sahədə həyata keçirilən mühüm tədbirlərdən, möhkəm qanunvericilik bazasının yaradılması və uğurla aparılan islahatlar barədə geniş məlumat verdi. Əmir müəllim çıxışında vurğuladı ki, respublikamızda cinayətkarlığa, o cümlədən korrupsiyaya qarşı mübarizə və bu sahədə həyata keçirilən mühüm addımların əsasını ulu öndərimiz Heydər Əliyev qoymuşdur. Ümummilli lider tərəfindən təməli qoyulmuş bu siyasət Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Qeyd edim ki, bu gün istər daxili qanunvericilik, istərsə də beynəlxalq müqavilələrin iştirakçısı olmaq nöqteyi-nəzərindən Azərbaycan Respublikası tərəfindən kifayət qədər geniş işlər, mühüm tədbirlər həyata keçirilmişdir. Artıq korrupsiyaya qarşı qanunvericilik üzrə mühüm istiqamətlər ölkəmizin ali məktəblərində ayrı-ayrı fənlər üzrə proqramlara daxil edilmiş, bu sahədə ixtisaslaşmış mütəxəssislər hazırlanmasına başlanılmışdır. Və bu gün qeyd edim ki, Bakı Dövlət Universitetinin hüquq fakültəsində bu sahədə dünya təcrübəsinə uyğun olaraq "Transmilli cinayət hüququ" magistratura ixtisaslaşması yaradılmaqla kadrların hazırlanması müvəffəqiyyətlə həyata keçirilir.

Tədbirin aparıcısı və geniş məruzə ilə çıxış edən Azərbaycan Respublikası Prokurorluğunun Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşı Elnur Musayev isə korrupsiya cinayətləri və onlara şərait yaradan hallara qarşı mübarizədə Azərbaycan Respublikası Prokurorluq orqanlarının səmərəli fəaliyyətindən, bu sahədə son zamanlar aparılan məqsədyönlü işlərdən və dünya dövlətləri praktikasını ciddi şəkildə öyrənilməklə Azərbaycan Respublikasında həyata keçirilən mühüm tədbirlərin əhəmiyyətindən danışdı. Elnur Musayev geniş məzmunlu çıxışında statistik rəqəmlərə söykənərək gələcək fəaliyyət istiqamətləri, Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarda uğurlu fəaliyyətini də xüsusilə ön plana çəkdi. Dövlətimizin beynəlxalq təşkilatlarla bu sahədəki müsbət əməkdaşlığının digər dövlətlər üçün də praktik hal ola biləcəyini əsaslandırdı.

Sonra söz mövzu ilə bağlı BMT-nin Cinayətkarlığa qarşı və Cinayət Ədalət İdarəsinin əməkdaşı Siqall Horovitzə verildi. O, çıxışında bu tədbirin böyük əhəmiyyət kəsb etdiyini vurğuladı və qeyd etdi ki, cinayətkarlığa, narkomaniyaya, korrupsiyaya qarşı mübarizə bütün dünya dövlətləri qarşısında duran ən ümdə məsələlərdəndir və Azərbaycan da bu hallara qarşı mübarizədə öz layiqli töhfəsini verir. Siqall Horovitz belə bir tədbirin həyata keçirilməsində göstərdiyi dəstəyə görə Bakı Dövlət Universitetinin rəhbərliyinə, o cümlədən hüquq fakültəsinin professor-müəllim heyətinə öz dərin təşəkkürünü bildirdi.

Tədbir məruzələr və məlumatlandırma-tədris bölmələrində öz işini davam etdirdi. 15-ə qədər tanınmış ekspertlərin məruzələri dinlənildi və geniş fikir mübadiləsi aparıldı. Burada dünya dövlətlərinin praktikası, BMT təcrübəsi və ayrı-ayrı dövlətlərin qanunvericilik təcrübəsi barədə geniş məlumat verildi. Müzakirələrdə Moskva Dövlət Beynəlxalq Əlaqələr Universitetinin Avropa Araşdırmaları İnstitutunun direktoru Tamara Şaşkina, Azərbaycan Respublikası Prokurorluğunun Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşı Elnur Musayev, Kiyev Dövlət Universitetinin professoru Oleksandr Merezko, Deniz Özer, professor, Dokuz Eylül University (Turkey), Asel Kurmanaliyeva (Qırğızıstan), Yaroslavs Strelsenoks (Latvia), Levan Ketsuriani, Tbilisi (Gürcüstan) və başqaları geniş məruzə ilə çıxış etmiş və fikir mübadiləsi aparmışlar.

Tədbirdə Bakı Dövlət Universitetinin hüquq fakültəsinin professor-müəllim heyəti, tələbələr, müstəqil ekspertlər də aktiv iştirak etmişdir. Tədbir iştirakçıları tərəfindən aparıcı dövlətlərin qanunvericilik və praktik fəaliyyətlərinin geniş təhlili, məlumat mübadiləsi aparılmasının əhəmiyyəti yüksək dəyərləndirilmişdir.

**Əli SADIQOV,**
**"Respublika".**

# İnnovasiyalı inkişafda əqli mülkiyyətin qorunması məsələləri müzakirə edilib

**Oktyabrın 30-da Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və UNESCO-nun "İnformasiya hamı üçün" proqramı ilə birgə əməkdaşlıqda "İnnovasiya həftəsi 26-30 oktyabr" çərçivəsində "İnnovasiyalı inkişafda əqli mülkiyyətin qorunması məsələləri" mövzusunda konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, konfransda nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini Əli Abdullayev Azərbaycanda ilk dəfə keçirilən "İnnovasiya həftəsi" beynəlxalq sərgi və konfransı çərçivəsində reallaşdırılan tədbirlərin əhəmiyyətindən danışıb. Bildirib ki, "İnnovasiya həftəsi"ndə təşkil olunan 20-dək tədbir Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında qarşıya qoyulan hədəflərə çatmaq üçün görülən işlərin bir hissəsidir.

Azərbaycanda İKT-nin geniş tətbiqini stimullaşdırmaqla əlverişli innovasiya mühiti yaradıldığını vurğulayan Əli Abdullayev innovasiyaların stimullaşdırılmasına və bazarların tənzimlənməsinə dəstək olan əqli mülkiyyətin və müəlliflik hüquqlarının qorunmasının əhəmiyyətinin kifayət qədər yüksəldiyini deyib. "Məhz innovasiyaların və texnoloji həllərin yaradılması, inkişafı və tətbiqi üzrə stimullaşdırıcı təsir vasitəsi olan və bu proseslərin ayrılmaz tərkib hissəsi hesab edilən əqli mülkiyyətin qorunması məsələləri bu səbəbdən aktuallıq kəsb edir", - deyə nazirin birinci müavini qeyd edib.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"nda qarşıya qoyulan vəzifələrin biri də rəqəmli mühitdə əqli mülkiyyətin, o cümlədən müəllif hüquqlarının qorunması ilə bağlı məsələlərin həll edilməsidir.

Sonra Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov çıxış edib. İnnovasiyalı inkişafın əqli mülkiyyətlə vəhdətini, konfransın əhəmiyyətini xüsusi vurğulayan Kamran İmanov qeyd edib ki, yaşadığımız "biliklər cəmiyyəti"ndə, texnologiyaların sıçrayış dövründə və innovasiyaların "rəqəmsal imperativ" zamanında innovativ inkişaf elə tədqiqatlardan alınan biliklərin və texnologiyaların, investisiyaların və əqli mülkiyyətin yaratdığı insan kapitalının ekosistemidir.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin yürütdüyü siyasət nəticəsində Azərbaycanın müasir çağırışlara cavab verən, islahatlarla zəngin olan və gələcəyə yönəldilən inkişaf modeli formalaşıb. Bu model biznes mühitinin inkişafını, sərmayə qoyuluşunun stimullaşdırılmasını, innovasiyalara açıq olan və sosialyönümlülüyü nəzərə alan yeni iqtisadiyyat modelidir. Azərbaycan yeni iqtisadi siyasətinin mühüm qolu - innovativ inkişafa qədəm qoyur, qeyri-neft sektorunu inkişaf etdirir, şaxələndirməni uğurla həyata keçirir, "Made in Azerbaijan" brendini təşviq etdirir. Ölkəmiz qısa müddətdə böhran vəziyyətini arxada qoyaraq, iqtisadi artımla dinamikaya malik olub və təsadüfi deyil ki, 2018-ci ilin Davos İqtisadi Forumunun rəqabətqabiliyyətlilik indeksinə əsasən 35-ci yerdə qərarlaşıb.

Sədr qeyd edib ki, ölkəmizin iqtisadi siyasəti ilə bağlı istiqamətləri və nailiyyətləri və əqli mülkiyyət nəticələri dərin bağlantıya malikdir. Odur ki, əqli mülkiyyət sisteminin qarşısında duran vəzifələr dövlətimizin başçısının innovasiyalı inkişafla bağlı yürütdüyü iqtisadi islahatlar siyasəti ilə formalaşdırılır. Bununla da əqli mülkiyyət bu siyasətin təsirinə və innovativ inkişafına adekvat xidmət etməlidir. Təhlil göstərir ki, yeni tələblərə adekvat olan əqli mülkiyyət sistemi üç amil nəzərə alınmaqla formalaşdırılmalıdır:

Birincisi, ali təhsil və elm sistemində radikal transformasiya nəticəsində (təhsil, tədqiqatlar və biliklərin kommersiyalaşması) universitetlərin yaranması, burada texnologiyaların kommersiyalaşması və transferinin ön plana çevrilməsi;

İkincisi, KOS-ın iqtisadi rolunun və innovasiya imkanlarının artırılması, burada əqli mülkiyyət siyasətinin dəstəklənməsi, texnoloji innovasiyaların stimullaşdırılması;

Üçüncüsü, əqli mülkiyyətin yeni fəaliyyət konteksti ilə bağlı onun dəyişmiş rolunun nəzərə alınması, sərvətlərin yaranma mərkəzinin maddi aktivlərdən




qeyri-maddi aktivlərə, intellektual kapitala yönəlməsi və investisiya axınlarının əqli mülkiyyətə istiqamətlənməsi.

Kamran İmanovun bildirdiyinə görə, makroiqtisadi səviyyədə dəyişikliklər ona gətirib ki, əqli mülkiyyət nöqteyi-nəzərindən tutumlu sahələr inkişaf etmiş ölkələrdəki ÜDM-in yarısına qədər çatıb. ABŞ-ın 2017-ci ilin fevral ayında açıqlanan "U.S.Chamber İnternational İP İndex" "The Roots of İnnovation" hesabatı əqli mülkiyyətin iqtisadiyyata müsbət təsirini təsdiqləyir. Nəzərə alınmalıdır ki, dövlətimizin başçısının təsdiq etdiyi "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında əqli mülkiyyət prioritet istiqamət kimi qəbul edilib və bu sənədə sahənin inkişafı ilə bağlı 8 tədbir daxil edilib, habelə bir sıra yol xəritələrində əqli mülkiyyət sahəsinə aid tapşırıqlar əks olunub. Ölkədə aparılan institusional islahatlara uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 aprel tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi yaradılıb. Nəticədə Əqli Mülkiyyət Agentliyi və tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi, Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi və Respublika Elmi-Texniki Kitabxanasından ibarət olan ixtisaslaşmış vahid dövlət qurumu yaradılıb. Yeni yaradılmış strukturda geniş islahatlar aparılır.

"Prezident İlham Əliyevin sözləri ilə desək, müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır. Hər bir dövləti rifah və yüksəlişə aparan yol elm və innovasiyalara əsaslanan inkişafdan keçir". Prezident İlham Əliyevin qarşımızda duran vəzifələri Davos İqtisadi Forumunda vurğuladığı kimi, "gələcəyimiz innovasiyalar, texnologiyalar, yaxşı idarəetmə, şəffaflıq və sahibkarlara dövlət dəstəyindədir". Bu yolla irəliləyən Azərbaycan 2009-cu ildən başlayaraq yuxarı-orta gəlirli ölkələr sırasındadır. Davos İqtisadi Forumunun "İnklüziv inkişaf indeksi-2018"ə əsasən, ölkəmiz inkişaf edən ölkələr arasında 3-cü yeri tutur.

Ölkəmizin kreativ iqtisadiyyatının (müəlliflik və əlaqəli hüquqlara əsaslanan sənayemiz) ÜDM-dəki payı 5 faizi ötüb, dünyanın orta səviyyəsindədir, hətta bir sıra inkişaf etmiş ölkələri geridə qoyur. Piratçılığa qarşı görülən tədbirlər nəticəsində 2005-ci illə müqayisədə piratçılığın səviyyəsi müxtəlif sahələrdə 20-30 faiz aşağı düşüb", - deyə K.İmanov bildirib.

Azərbaycan Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) rəhbər orqanlarında, o cümlədən Koordinasiya Komitəsində, Proqram və Büdcə Komitəsində təmsil olunur. Azərbaycanın nümayəndəsi (K.İmanov) "ÜƏMT-nin Müəlliflik hüququna dair Müqaviləsi"nin Assambleyasının vitse-prezidenti seçilib. ÜƏMT ilə əməkdaşlığın nəticəsi olaraq, 2006-cı ildə Azərbaycan Respublikası hökuməti və ÜƏMT arasında Əməkdaşlıq Proqramı, 2014-cü ildə Azərbaycan Respublikası hökuməti və ÜƏMT arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu və hazırda yenilənmiş Memorandum imzalanıb.

Ölkəmizdə Müəllif Hüquqları Agentliyi, indi isə Əqli Mülkiyyət Agentliyi, Təhsil Nazirliyi və ÜƏMT-nin birgə hazırladıqları "Universitet və elmi tədqiqat institutlarında əqli mülkiyyət siyasəti" həyata keçirilir. Layihə elmi tədqiqat nəticələrinin kommersiyalaşdırılması, tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi, yaradılan yüksək texnologiyaların iqtisadiyyatda tətbiqi üçün əlverişli şəraitin yaradılması və iqtisadi səmərəsinin artırılması məqsədlərinə xidmət edir.

Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri bildirib ki, startaplar və spinautlar hərəkatını dəstəkləmək məqsədilə bir sıra sərgi-nümayişlər keçirilib. ÜƏMT və Müəllif Hüquqları Agentliyi 2015-ci ildən başlayaraq Azərbaycanda bu mövzuya aid olan 5 beynəlxalq konfrans, o cümlədən ilk startap sərgilərini təşkil edib. Elmi təsisatlar üçün bir sıra metodik sənədlər və broşürlər hazırlanaraq paylanılıb.

Artıq nəticələr də görünür: aparıcı ali təsisatlarda startaplar, inkubatorlar, kommersiyalaşma mərkəzləri yaradılır, müsabiqələr, startap festivalları təşkil olunur. Son böyük startap sərgisi ÜƏMT-nin baş direktoru F.Qarrinin Bakıya səfəri və "Bilik və innovasiya iqtisadiyyatına əqli mülkiyyətin dəstəyi" adlı beynəlxalq konfrans zamanı, 2018-ci ilin iyun ayında Əqli Mülkiyyət Agentliyi tərəfindən təşkil edilmişdi. Hazırda bu istiqamətdə nəzərəçarpan canlanma müşahidə olunur və Əqli Mülkiyyət Agentliyi Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birgə bu il noyabrın 21-də Cenevrə şəhərində ÜƏMT və İTU beynəlxalq strukturları ilə birgə ölkəmizin yeni simasını - startapların və spinautların sərgisini nümayiş etməyə hazırlaşır.

Tanınmış mütəxəssislərin fikrincə, gələcəkdə əqli mülkiyyətin beynəlxalq arxitekturası və formasının texnologiyalar tərəfindən getdikcə daha çox diktə ediləcəyi və onu idarə etməsi qaçılmazdır. Bununla da texnologiyaların əqli mülkiyyətin mövcud landşaftına kardinal təsirini və öz növbəsində, əqli mülkiyyətin buna qarşı çıxmamasını, əksinə, ona uyğunlaşmasını vurğulayırıq.

İnnovasiyalı inkişafın başında innovasiyaların, yeniliyin iqtisadi gəlir əldə etmək məqsədilə praktiki tətbiqi durur. Odur ki, müasir dövrdə innovasiyalı inkişafın prioriteti texnologiyaların kommersiyalaşmasıdır, yəni, innovasiyaların bazara çıxarılması, yenilikçilik məhsullarının istehlakçıya çatdırılmasıdır.

Bir sözlə, bunun altında "elmi-tədqiqat işlərinin nəticələrindən gəlir gətirən hər hansı fəaliyyət, o cümlədən əqli mülkiyyət hüququnun istifadəsindən yaranan royalti, texnologiyalara əsaslanan yeni kompaniyaların yaradılması, özəl müştərilərlə bağlanan tədqiqat kontraktları və s. nəzərdə tutulur.

Kamran İmanov xüsusi qeyd edib ki, innovasiyalı inkişaf əqli mülkiyyət məsələlərinin, texnologiyaların kommersiyalaşmasına aid və innovasiyalara dəstək problemlərinin birgə, sistemli həllini tələb edir. Dünya təcrübəsinin göstərdiyi kimi, kommersiyalaşmanı sürətləndirmək və bununla da innovasiyalı inkişafı təmin etmək məqsədilə aşağıda sadalanan istiqamətlər əlverişlidir:

Birincisi, yeni kiçik innovasiyalı müəssisələrin (startap kompaniyalarının) yaradılmasının stimullaşdırılması;

İkincisi, kiçik və orta müəssisələrin innovasiyaların istifadəsi imkanlarının artırılması;

Üçüncüsü, universitetlər və dövlət elm təşkilatlarının kompaniyalarla, sənaye sektoru ilə əməkdaşlığının sürətləndirilməsi və sənaye kompaniyalarının yeni texnologiyaların istifadəsinə həvəsləndirilməsi.

Qeyd edilənlər aydınlıqla, ilk növbədə, qanunvericilik və normativ hüquqi tənzimlənmənin tələbini irəli sürür. Bu sıraya cavablarını gözləyən aşağıdakı məsələlər daxildir:

**a)** Tədqiqat nəticələrinə mülkiyyət hüququ:

- dövlət mənbələrindən maliyyələşən tədqiqatlar nəticələrinə mülkiyyət hüququ (ƏMH və ƏM sahibliyi) kimə məxsusdur (akademik nöqteyi-nəzərindən yox, kommersiya nöqteyi-nəzərindən)?
- kommersiyalaşma ilə bağlı məsuliyyət kimin üzərinə düşür?

**b)** Elmi-tədqiqat nəticələrinin kommersiyalaşmasına yönələn kompaniyaların yaranması:

- Universitet (elmi təsisat) və ya ayrı-ayrı tədqiqatçı startap kompaniyaların yaranmasında iştirak edə bilərmi və öz payını kompaniyanın kapitalına daxil etməyə haqqı varmı?
- Bu iştirakın formaları hansılardır?
- Tədqiqatçı startap kompaniyasında işləyə bilərmi?
- Startap kompaniyalarının stimullaşdırılmasının yolları hansılardır?

**c)** Kommersiyalaşmanın inkişafının stimulları:

- royalti ilə bağlı gəlir dövlət tədqiqat təşkilatı, tədqiqatçı və vasitəçi arasında nə cür bölünməlidir?
- hansı vergi preferensiyalar (güzəştlər) tətbiq olunur (oluna bilər)?
- hansı resurslar (vəsaitlər) hesabına stimullar formalaşır (formalaşa bilər)?
- kommersiyalaşmanın inkişafı üçün tədbirlərə yönəldilən dövlət büdcəsi vəsaitlərinin maliyyə mexanizmi nə cür ola bilər?
- gömrük nizamlanması kommersiyalaşmanın tədbirlərinin qarşısına çıxırmı?

**d)** Kommersiyalaşmanın inkişafının infrastrukturunun formalaşması:

- kommersiyalaşmaya təkan verən ixtisaslaşmış dövlət təşkilatları (dövlət agentlikləri) nə cür yaranır və inkişaf etdirilir?
- kommersiyalaşma mərkəzlərinin yaranması və inkişafı hansı yollarla stimullaşdırılır?
- texnologiyaların transferi və elmi-tədqiqat təşkilatlarının sənaye ilə əlaqələri sahəsində şəbəkə strukturlarının inkişafı üçün hansı stimullar əlverişlidir?
- büdcə və özəl sektor vəsaitləri hesabına kommersiyalaşmaya yönəldilən birgə maliyyələşmə və özəl-dövlət tərəfdaşlıq (partnyorluq) formaları və qaydaları hansılardır?
- kadr hazırlığı və s. məsələlər.

Sonra Kamran İmanov "İnnovasiyalı inkişaf və əqli mülkiyyət" mövzusunda təqdimatını edib. Dünya Bankının 2012-ci il hesabatına əsasən, Azərbaycanın "bilik iqtisadiyyatı" indeksinə (EKEİ&Kİ İndexes, 2012) görə 146 ölkə sırasında 79-cu yeri tutduğunu vurğulayan sədr ölkəmizdə bilik iqtisadiyyatına aid sahələrin ÜDM-dəki payının təqribən 8 faiz (əsasən kreativ iqtisadiyyat hesabına: 5,1 faiz), Rusiyada 15 faiz, Avropanın inkişaf etmiş ölkələrində 35 faiz, ABŞ-da 45 faiz olduğunu bildirib.

Davos İqtisadi Forumunun Rəqabətqabiliyyətlilik İndeksini (Global Competitiveness İndex 2016-2017) ətraflı analiz edən Kamran İmanov iki il öncəki hesabatda Azərbaycanın innovasiyalar bazis göstəricisinə görə MDB məkanında 1-ci (dünyada 49-cu yer) olduğunu və bunun əsasən "innovasiya imkanları" göstəricisinin çox yüksək (dünya miqyasında 42-ci yer) pillədə durduğuna görə olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb. Bununla yanaşı, elmi fəaliyyət imkanlarımız da var. Belə ki, "elmi-tədqiqat təsisatlarının keyfiyyəti" indeksinə görə Azərbaycan 68-ci yeri tutur və əqli mülkiyyət hüquqlarının qorunmasına görə o zaman ölkəmiz dünyada 68-73-cü yerləri tutaraq MDB məkanında lider üçlüyündə idi.

Qlobal İnnovasiya İndeksinin (Global İnnovation İndex) 2016-cı və 2017-ci il hesabatlarına əsasən, Azərbaycanın PCT sifarişlərinə görə, müvafiq olaraq, yalnız 94-cü və 99-cu yerləri tutduğunu qeyd edən Kamran İmanov bildirib ki, arzuedilən hal patentlərin, əqli mülkiyyət obyektlərinin çoxalmasıdır. Lakin deviz də dəyişməlidir: "Patent çox, gəlir yox" şüarı qüvvədən düşməlidir. Bütün bunları digər Qlobal İnnovasiya İndeksi də təsdiqləyir. Belə ki, Qlobal İnnovasiya İndeksində Azərbaycan 2016-cı ildə 85-ci yerdə, 2017-ci ildə isə 82-ci yerdə olub. K.İmanov xüsusi vurğulayıb ki, Qİİ-nin Azərbaycanın yeri ilə bağlı bir sıra ziddiyyətləri, hesabatdan irəli gələn uyğunsuzluqları bir kənara qoysaq, aydın olur ki, bizim işləməli böyük ehtiyatlarımız mövcuddur. "İnnovasiya resursları" altindeksində (innovasiya imkanları) 2016-cı ildə 81-ci yeri tutduğumuz halda (2017-ci ildə 78-ci yeri), "innovasiyaların nəticələri" altindeksində müvafiq olaraq, 13 və 12 pillə aşağı nəticə - 94-cü (89-cu) yer müşahidə olunur ki, bu da innovasiya potensialının reallaşdırılmasının kifayət qədər ehtiyatlarının olmasının işarəsidir.

Daha sonra Kamran İmanov Davos İqtisadi Forumunun yeni metodika üzrə hesablanmış 2018-ci il Qlobal Rəqabətqabiliyyətlilik İndeksini detallarla təhlil edib. Bildirib ki, "Təsisatlar keyfiyyəti" sütununun "Mülkiyyət hüquqları" altindeksinin "Əqli mülkiyyətin qorunması" göstəricisi üzrə Azərbaycan 4.8 bal yığaraq 36-cı yerdə qərarlaşıb (ötən il 37-ci yeri tutmuşdu). "Əqli mülkiyyətin qorunması" göstəricisi üzrə Azərbaycan MDB dövlətləri arasında 1-ci yeri tutur və müvafiq olaraq Ermənistandan 30, Gürcüstandan isə 54 pillə irəlidədir. "İnnovasiya potensialı" mövqeyi üzrə müvafiq olaraq 85-ci yerdə olan Gürcüstanı və 87-ci yerdə olan Qazaxıstanı qabaqlayaraq ölkəmiz 71-ci yeri tutur. Bu mövqe üzrə Rusiya Federasiyası (36-cı yer) və Ukrayna (58-ci yer) liderlik edirlər.

Sonda Kamran İmanov innovasiyalara yönələn əqli mülkiyyət siyasətinin detallarını açıqlayıb, Əqli Mülkiyyət Agentliyi qarşısında duran əsas məqsədin innovasiyalara dəstək verən əqli mülkiyyət sisteminin formalaşması olduğunu bildirib.

Qeyd edək ki, təqdimat zamanı təqdim olunan məlumatlar bir tərəfdən beynəlxalq strukturların açıqlanmış reytinqlərinə, digər tərəfdən isə Əqli Mülkiyyət Agentliyində yeni yaradılan əqli mülkiyyətin təhlili və siyasəti şöbəsinin ilk dəfə olaraq aparılan araşdırmalarına əsaslanır.

Konfrans panellərlə davam edib. Birinci paneldə rabitə və yüksək texnologiyalar nazirinin müşaviri, UNESCO-nun "İnformasiya hamı üçün" Proqramının Azərbaycan Komitəsinin sədri Tahir Məmmədov "İnformasiya cəmiyyəti və yeni çağırışlar" mövzusunda çıxış edib.

Tədbirdə Əqli Mülkiyyət Agentliyinin aparat rəhbəri Natiq İsayev rəqəmsal mühitdə müəllif hüquqlarının qorunması problemlərinə toxunub. O, internetdəki mövcud münasibətlər sistemində müəllif hüquqları ilə bağlı məsələlərin tənzimlənməsi, rəqəmsal piratçılığın iqtisadiyyata vurduğu zərərlər, Azərbaycanda hüquqların təminatı ilə bağlı, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində görülən işlər, həmçinin piratçılığa qarşı mübarizə tədbirləri barədə danışıb. Habelə Əqli Mülkiyyət Agentliyi tərəfindən yaradılmış qlobal rəqəmli şəbəkədə əqli mülkiyyət hüquqları ilə qorunan obyektlərdən istifadə edilməsinə "one-stop-shop" formatında və onlayn qaydada icazə verilməsinə əsaslanan rəqəmli hüquqları idarəetmə sistemi (Digital Right Management) və bu sistem çərçivəsində elektron bazanın formalaşdırılması barədə məlumat verib.

"Kreativ iqtisadiyyatın inkişafdakı rolu" mövzusunda təqdimat edən Əqli Mülkiyyət Agentliyinin şöbə müdiri Rüstəm Ağayev son illər dünya iqtisadiyyatını əhatə edən tənəzzülə və çətinliklərə baxmayaraq, ölkəmizdə uğurla aparılan islahatların və aidiyyəti dövlət qurumları ilə birgə mütəmadi qaydada həyata keçirilən tədbirlərin nəticəsi olaraq, respublikamızda ÜDM-də müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan kreativ sənayenin payının davamlı şəkildə artdığını vurğulayıb.

Sonra agentliyin şöbə müdiri Aydın Hüseynov "Texnologiyaların transferi və kommersiyalaşdırılması məsələləri" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə bir neçə problem - universitetlərlə sənaye qurumları arasında biliklərin və texnologiya transferi kanallarının təhlili, ən müasir texnologiya transferi modellərinin seçilməsi məsələləri əhatə olunub, innovasiya infrastrukturunun ən vacib elementi - Texnologiya Transferi və Kommersiyalaşma mərkəzləri şəbəkəsinin yaradılması ilə bağlı görülən işlər barədə məlumat verilib.

Əqli Mülkiyyət Agentliyinin tabeliyində Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin şöbə müdiri Gülnarə Rüstəmova "Yüksək texnologiyalar sahəsində patent alınması" mövzusunda çıxış edib. O, tədbir iştirakçılarını ixtiraların nəinki Azərbaycan ərazisində, həm də xaricdə qoruna bilməsi ilə bağlı qanunvericiliklə müəyyən edilmiş qaydalar barədə məlumatlandırıb.

Konfransda, həmçinin "İnnovasiyalı inkişafda əqli mülkiyyətin qorunması", "Elmi tədqiqatların nəticələrinin kommersiyalaşdırılması mexanizmləri", "Elektron ticarətdə əqli mülkiyyət", "Rəqəmsal iqtisadiyyat şəraitində əqli mülkiyyətin kommersiyalaşdırılması məsələləri", "Açıq məlumatlar və onlardan istifadə hüquqları" mövzularında çıxışlar dinlənilib.

**AZƏRTAC**

# Məcburi köçkünlərlə növbəti görüş keçirilib



**Oktyabrın 30-da Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində məcburi köçkünlərlə növbəti görüş keçirilib. Görüşdə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, sədr müavinləri, aparat rəhbəri, şöbə və departament müdirləri iştirak ediblər. Bu barədə AZƏRTAC-a Dövlət Komitəsindən məlumat verilib.**

Əvvəlcədən Dövlət Komitəsinin sədri məcburi köçkünlərlə fərdi qaydada görüşüb, onların müraciətlərini dinləyib. Müraciətlər, əsasən, mənzil, statusun verilməsi, vahid aylıq müavinətin təyin edilməsi, məşğulluq və digər məsələlərlə bağlı olub.

Məlumat verilib ki, dövlətimiz məcburi köçkünlərin yeni mənzillərlə təmin olunmasına, onların sosial məsələlərinin həllinə daim qayğı ilə yanaşır. Prezident İlham Əliyev məcburi köçkünlərlə bağlı məsələni sosial siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edib. Dövlətimizin başçısının tapşırığına əsasən, bu kateqoriyadan olan vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması, məşğulluğunun təmin edilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Birinci vitse-prezident xanım Mehriban Əliyevanın ən ağır şəraitdə, qəza vəziyyətində olan bina və tikililərdə yaşayan məcburi köçkünlərin ilk növbədə yeni mənzillərə köçürülməsi ilə bağlı verdiyi tapşırığın icrası davam etdirilir.

Məcburi köçkünlərin müraciətlərində qaldırılan məsələlərin həlli ilə bağlı Dövlət Komitəsinin müvafiq strukturlarına konkret tapşırıqlar verilib.

**AZƏRTAC**

# GORANBOYDA ABADLIQ, QURUCULUQ İŞLƏRİ GENİŞ VÜSƏT ALIB

Respublikamızın hər yerində olduğu kimi, Goranboyda da aqrar sahə ilə yanaşı rayonda tikinti, abadlıq və quruculuq işləri səngimir.

Rayonda həyata keçirilmiş tədbirlər həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinə görə miqyaslı, konkret və ünvanlı olması ilə də diqqəti çəkir. Mövcud sənaye müəssisələrində istehsal gücünün artırılması, yeni müəssisələrin işə salınması şəhərdə iqtisadiyyatın yüksəlməsinə güclü təkan vermişdir. Sahibkarlıq inkişaf edir, yeni müəssisələr yaradılır, məktəblər, bağçalar, müalicə ocaqları müasir, əsaslı surətdə təmir olunur, yenidən qurulan yollar abadlaşır. Azərbaycan Prezidenti İlham Əliyevin Goranboy rayonuna daim diqqət və qayğısı rayonun simasında öz əksini tapıb. **Rayon icra hakimiyyətinin başçısı Nizaməddin Quliyevin** apardığı məqsədyönlü ardıcıl tədbirlər öz bəhrəsini verir.

Dövlət başçısının tapşırıq və göstərişlərinə əsasən son illərdə kənd yollarının yenidən qurulması, mövcud yolların müasir səviyyəyə çatdırılması istiqamətində mühüm layihələr icra olunur. Rayonda 27 min əhalinin yaşadığı 20 yaşayış məntəqəsini birləşdirən avtomobil yollarının istismara verilməsi rayon mərkəzi ilə kəndlərin nəqliyyat əlaqələrini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır.

Goranboy və Samux rayonlarının inzibati ərazisində yerləşən "Boz dağ" massivində yaradılmış "Region Aqropark"da qısa müddət ərzində mühüm işlər görülmüşdür. Bura Şəmkir maşın kanalından 12,1 km su kəməri çəkilmiş, su anbarları inşa edilmiş, müasir suvarma sistemləri quraşdırılmışdır. 14 km yüksək gərginlikli elektrik xətti çəkilmiş, transformator yaradılmışdır. 12 km qaz xəttinin çəkilişi başa çatmaq üzrədir. İnzibati və yardımçı binaların tikintisi aparılır. Meyvə bağları salınmış, pambıq, buğda, arpa əkilmişdir. Burada emal müəssisələri, soyuducu anbarlar inşa ediləcək, 500 yeni iş yeri yaradılacaqdır.

Artıq "Region Aqropark" öz nəticələrini verməkdədir. 326 hektarda buğda, 497 hektarda arpa əkilmiş, hər hektardan 50 sentnerdən çox məhsul götürülmüşdür. 64 hektar sahədə kartof becərilmiş, 640 ton məhsul əldə edilmişdir ki, bu da hər hektardan 100 sentner məhsuldarlıq deməkdir. 192 hektar sahədə pambıq əkilmiş, bu gün yığım davam edir. 323 hektar şəkər çuğunduru, 823 hektar qarğıdalı sahəsində yaxın günlərdə yığıma başlanacaqdır. Bu sahələrdən də yüksək məhsul gözlənilir. Goranboy şəhərində qəzalı vəziyyətdə olan çoxmərtəbəli yaşayış binalarının sakinlərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 40 mənzilli yaşayış binasının tikintisi ilə bağlı cənab Prezidentin verdiyi sərəncam rayona göstərilən yüksək diqqət və qayğının növbəti təzahürüdür. Artıq yaşayış binasının tikintisi ilə bağlı layihə-smeta sənədləri hazırlanmış, müvafiq yer ayrılmış, yaxın vaxtlarda tikintiyə başlanacaqdır. Müasir memarlıq üslubunda Bayraq Muzeyi tikilmiş, 72 metr hündürlüyündə Dövlət Bayrağı ucaldılmışdır. Bayraq Meydanında 930 kv.metr tamet düzülmüş, yeni gül kolları əkilmiş, yaşıllıq salınmış, ərazidə 18 ədəd yeni yaraşıqlı işıqlandırma dirəyi quraşdırılmışdır. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin inzibati binasında tikinti işləri sona çatmaq üzrədir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə ayrılmış vəsait hesabına rayon Mərkəzi xəstəxanası üçün 130 çarpayılıq müasir binada son tamamlama işləri görülür.

Cənab Prezidentin tapşırığı ilə Olimpiya İdman Kompleksinin tikintisi aparılır. Kompleksin növbəti ildə istifadəyə verilməsi nəzərdə tutulmuşdur. Rayon mərkəzində xalça istehsalı emalatxanasının, Ailə və Uşaqlara Dəstək Mərkəzinin tikintisi davam edir.

Goranboy şəhəri, M.Məhərrəmov küçəsi 22 saylı yaşayış binasının dam örtüyü, fasad və həyətyanı sahələrində müasir stildə təmir işləri görülür. Goran qəsəbəsi 2, 4, 6 saylı binaların fasad hissələri suvanmış, dam örtükləri dəyişdirilmiş, həyətlərə səki yan daşları düzülmüşdür. Eyni zamanda Dəliməmmədli şəhərində 20-dək kommunal evin dam örtükləri yenilənmiş, fasad hissələri təmir edilərək zövqlə rənglənmişdir. Şəhər mərkəzində yerləşən Heydər Bulağının ərazisində də geniş abadlıq işləri aparılmışdır. Gorandan tərəfdən şəhərə giriş hissədə İrəvanlı kəndi ərazisində 1600 kv.metr hasar təmir edilmişdir. Heydər Əliyev adına Mədəniyyət və istirahət parkındakı əsrarəngiz fontanlar sakinlərə zövq verir. Şəhərin müxtəlif yerlərində 1000 ədəd yeni dekorativ ağac və gül kolları əkilmişdir. Xoylu kənd tam orta məktəbin əlavə korpusu əsaslı təmir edilmişdir. Səfikürd və Balakürd kəndlərində sakinlərin asudə vaxtının səmərəliliyi üçün mini stadionlar quraşdırılmışdır. Son illər gəlirli sahələrdən olan pambıq, barama, tütün və çuğundur istehsalına diqqət artırılmışdır. Cari ildə 5 min hektarda pambıq əkilmişdir. 9,8 ton barama istehsal edilmiş, 1400 ton şəkər çuğunduru yığılmışdır. 8 hektar sahədə tütün əkilmiş, 3,5 ton quru tütün təhvil verilmişdir, yığım davam edir. Rayonda meyvəçiliyin də potensialı böyükdür. Hər il 20 min tonadək məhsul istehsal edilir. Rayonun suvarma suyuna olan tələbatının ödənilməsi üçün ciddi işlər görülmüşdür. Bu il 16 yaşayış məntəqəsində 19 ədəd subartezian quyusu qazılmışdır. Bu da suvarma suyuna olan tələbatın ödənilməsinə xeyli təkan vermişdir.



22 yaşayış məntəqəsində elektrik təsərrüfatı yenidən qurulmuşdur. Yaşayış məntəqələrinin qazlaşması işi davam etdirilir. Yəhərçi Qazaxlar və Goranlı kəndlərində son tamamlama işləri aparılır, ilin sonunadək bu kəndlərə təbii qaz veriləcəkdir. Həmənli kəndinə təbii qazın çəkilişi davam edir. Hazırda rayon üzrə qazlaşma 95 faiz təşkil edir ki, bu da vətəndaşların sosial qayğılarının həlli deməkdir. Bəli, bu gün Goranboy rayonu dinamik inkişaf və tərəqqi yolundadır. Elə bir davamlı inkişafdadır ki, rayonun təkcə siması deyil, sakinlərin həyat tərzi, sosial vəziyyəti də xeyli yüksəlmişdir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**





# Şəki: Sosial-iqtisadi sahədə uğurlar





**Oktyabrın 9-da cənab Prezidentimiz İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin 9 ayının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. İclasda ölkəmizin sənaye potensialının gücləndirilməsi, sosial proqram və layihələrin icrası geniş müzakirə olunmuş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkədə kənd təsərrüfatının inkişafında yeni mərhələ başlanmışdır. Aqrar sahədə həyata keçirilən islahatların əsas məqsədi əhalinin məşğulluq problemini həll etmək, qeyri-neft sektorunu inkişaf etdirməkdən ibarətdir.

Cari ilin doqquz ayında Şəki rayonunda görülmüş işlər bu günlərdə keçirilən geniş şura iclasında müzakirə olunmuş və qarşıya qoyulmuş vəzifələr müəyyənləşdirilmişdir. Geniş hesabatla çıxış edən **Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov** qeyd etmişdir ki, Şəki respublikamızın ən iri aqrar rayonlarından biridir. Rayonun kənd təsərrüfatının əsas sahələrindən birini taxılçılıq təşkil edir. Rayon ərazisində taxıl istehsalçıları tərəfindən ötən iln payızında əkilmiş 66774 hektar taxıl sahəsində yetişən məhsulun vaxtında və itkisiz yığılması üçün tərəfimizdən zəruri tədbirlər görülmüşdür. Artıq rayonda 66774 min hektar taxıl sahəsi biçilmiş, 220 min 847 ton məhsul istehsal edilmişdir ki, bu da ötən ilin istehsalından 7 min ton çoxdur. Orta məhsuldarlıq 33 sentner təşkil etmişdir.

Rayonumuz üçün spesifik hesab edilən baramaçılığın, tütünçülüyün, fındıqçılığın inkişafının təmin edilməsi istiqamətində ölkə başçısı tərəfindən qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsi üçün geniş iş aparılır. Baramaçılığın inkişafında əsas faktor ipəkqurdunun yem bazasının genişləndirilməsidir. 2016-2017-ci illərdə ildə rayonumuzda 92 min ədəd Çin Xalq Respublikasından idxal olunan və 123400 ədəd yerli sortlardan ibarət tut tingi əkilmişdir. 2016-cı ildə rayonda 9,7 ton, 2017-ci ildə 17,9 ton barama istehsal edilmişdisə, 2018-ci ildə 48,2 ton barama istehsal edilmişdir ki, bu da keçən illə müqayisədə 2,7 dəfə çoxdur.

Rayonda istehsal olunan ixracyönümlü məhsullardan birini də tütün təşkil edir. Son statistik məlumata əsasən artıq rayonda 2342 ton tütün istehsal olunub. Tütünçülüyün inkişaf etdirilməsi və istehsalçıların marağının müdafiə olunması məsələsi də Şəki Şəhər İcra Hakimiyyəti tərəfindən daim nəzarətdə saxlanılır.

Hazırda rayon üzrə mövcud fındıq bağlarının sahəsi 2387 hektardır. 2018-ci ilin payız mövsümündə 700-800 hektar sahədə yeni fındıq bağlarının salınması nəzərdə tutulur.

Məhz cənab Prezidentimizin tapşırıq və tövsiyəsinə uyğun olaraq rayonumuzun Bolludərə, Qaratorpaq və Sarıca kəndləri ərazisində "Aqroinkişaf 2017" MMC tərəfindən icarəyə götürülmüş 8969 hektar sahədə aqropark yaradılır. Aqroparkın istifadəsinə verilən torpaq sahəsinin Bolludərə kəndi ərazisində yerləşən hissəsində 194 hektarda müasir aqrotexniki qaydada qoz bağı salınmışdır. 194 hektar bağın 17 hektarını tinglik sahə, 177 hektarını isə qoz bağı təşkil edir.

Rayonumuzun əsas kənd təsərrüfatı sahələrindən biri hesab olunan heyvandarlıq sahəsində də dinamik inkişaf təmin edilir. Hazırda rayonda 71 663 baş iribuynuzlu, 309864 baş xırdabuynuzlu, 281 120 baş ev quşları var. Mövcud mal-qara arasında baytarlıq və damazlıq tədbirləri ardıcıl davam etdirilir, yem tədarükü işləri uğurla həyata keçirilir.

2018-ci ilin 9 ayında Şəkidə yenidənqurma, tikinti-quraşdırma işləri davam etdirilmiş, ilin əvvəlində şəhərimizdə aparılacaq abadlıq, quruculuq işlərinin planı təsdiqlənmişdir. İl ərzində şəhərin 12 küçəsində yolların əsaslı təmir edilməsi, 10-dan artıq küçənin dağılmış örtüyünün asfalt-betonla bərpa olunması, 8 küçədə su arxlarının yenidən qurulması, 6 küçədə yararsız vəziyyətə düşmüş səkilərin təmir edilməsi, 4 ədəd çoxmənzilli ictimai yaşayış binalarının dam örtüklərinin əsaslı təmir edilərək yenidən qurulması, 17 ədəd yaşayış binasının bloklarının əsaslı təmir edilməsi, həyətlərində abadlıq işlərinin aparılması nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sifarişi ilə Şəki şəhəri Zərifə Əliyeva küçəsində "ASAN həyat" kompleksinin tikintisində son tamamlama işləri aparılır. Kompleksdə "ASAN xidmət" inzibati binasının tikintisi ilə bərabər bir sıra köməkçi binaların tikilməsi və geniş bir ərazidə park salınması da nəzərdə tutulmuşdur.

"Şəki rayonunun Kiş kəndində abadlıq-quruculuq işləri aparılmasına dair tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2017-ci il tarixli 3264 nömrəli Sərəncamına əsasən Kiş kəndində "Kiş Alban məbədi"nə aparan dairəvi avtomobil yolunun tikintisi və yolboyu ərazinin abadlaşdırılması işinin qısa müddətdə yüksək keyfiyyətlə başa çatdırılması üçün zəruri tədbirlər görülür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 09 mart 2018-ci il tarixli Sərəncamı ilə bu il rayonun Çapağan, Aşağı Daşağıl, Yeni Göynük, Daşbulaq və Öyrət kəndlərində yeni modul tipli məktəbin tikintisi nəzərdə tutulmuşdur. Müddət ərzində təhsilin keyfiyyətinin yüksəldilməsi, hərbi-vətənpərvərlik tərbiyəsi, istedadlı uşaqlarla işin yaxşılaşdırılmasına diqqət artırılmışdır.

Şəki Mərkəzi Rayon Xəstəxanası və onun tabeliyində fəaliyyət göstərən tibb müəssisələri tərəfindən 2018-ci ilin 9 ayında əhaliyə göstərilən tibbi xidmətin səviyyəsi yüksəlmiş, tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması sahəsində işlər görülmüşdür.

Şəki Şəhər İcra Hakimiyyəti tərəfindən Şəkinin turizm potensialının beynəlxalq səviyyədə tanıdılması istiqamətində mühüm işlər görülür.

2018-ci ilin 9 ayında 214 nəfər vətəndaş Şəki Şəhər İcra Hakimiyyəti başçısı tərəfindən qəbul edilmişdir. Müddət ərzində şəhər icra hakimiyyəti başçısı tərəfindən 33 səyyar qəbul keçirilmiş, 233 nəfər vətəndaş dinlənilmiş, 284 müraciət səsləndirilmişdir. Müddət ərzində Şəki Şəhər İcra Hakimiyyətinə 2056 müraciət daxil olmuşdur ki, onlardan da 912 ədədi respublikanın yuxarı orqanlarından, 1144 ədədi isə birbaşa vətəndaşlar tərəfindən daxil olan müraciətlərdir. Daxil olan müraciətlərin 1970 ədədi ərizə, 82 ədədi şikayət, 4 ədədi isə təklif olmuşdur. Daxil olan müraciətlərin 180 ədədi müsbət, 32 ədədi qismən həll edilmiş, 1434 ədədi ilə bağlı müvafiq izahat verilmiş, 3 ədədi əsassız sayılmış, 251 ədədi baxılmaq üçün aidiyyəti orqanlara göndərilmiş, qalanı isə icradadır.

Sonda şəhər icra hakimiyyətinin başçısı əminliklə vurğulamışdır ki, rayonumuzda son illər ərzində bütün sahələrdə əldə edilən uğurlar davam etdiriləcək, yeni nailiyyətlərin qazanılması üçün qarşıya qoyulan vəzifələr layiqincə yerinə yetiriləcəkdir.

**İlham PƏNAHOV,**
**"Respublika".**

# Qışa hazırlıq işləri

Qarşıdan qarlı-şaxtalı qış ayları gəlir. Soyuq qış özü ilə həm də bir çox problemlər, çətinliklər gətirir. Odur ki, qışa vaxtında hazırlıq görülməlidir. Şimal rayonu Qusarda da qışa ciddi hazırlaşırlar. Xidmət sahələri əhalinin fasiləsiz elektrik, qaz və su ilə təmin olunması üçün təmir-bərpa işlərini başa çatdırmaq üzrədirlər. Bu barədə aidiyyəti idarələrin rəhbərləri məlumat verirlər.

**"Azərişıq" ASC-nin Qusar elektrik şəbəkəsinin rəisi Rəhman Səmədov:** "Energetiklərimiz rayon əhalisinin elektrik enejisi ilə təminatını yaxşılaşdırmaq, xüsusilə qış aylarında abonentlərə fasiləsiz elektrik enerjisi vermək məqsədilə təmir-quraşdırma işlərini vaxtında başa çatdırmağa çalışırlar. Qışa ilin əvvəlindən hazırlaşan energetiklər bir sıra zəruri təmir işləri həyata keçirmişlər. Şəbəkənin balansında olan 10-6 kilovoltluq hava elektrik verilişi xətlərində istismar müddəti bitmiş 155 ədəd ağac dayaq dəyişdirmiş, 5,7 kilometr yeni naqil çəkilmişdir. Rayonun Piral kəndində 100 kVA-lıq, Aşağı Ləyər kəndində 100 kVA, Kirig kəndində




160 kVA gücündə əlavə kompleks transformator məntəqələri istismara verilmişdir. Balaqusar kəndində yeni quraşdırılmış 630 kVA və 250 kVA KTM-lərin paylayıcı şəbəkəsində yeni özünüdaşıyan naqil kabel xətlərinin çəkilməsi işləri başa çatdırılmışdır. Bu məqsədlə 405 ədəd yeni dəmir dayaq quraşdırılmış, 12,5 kilometr uzunluqda yeni kabel xətti çəkilmişdir. 227 abonentin sayğacı yeni elektron tipli sayğacla əvəz edilmişdir. Avaran kəndində abonentlərin keyfiyyətli və fasiləsiz elektrik enerjisi ilə təmin olunması üçün 250 kVA və 160 kVA KTM-lərin 0,4 kV-luq paylayıcı şəbəkələrində istismar müddəti başa çatmış açıq naqillər əvəzinə yeni ÖİN kabelin çəkilməsi işləri yekunlaşmışdır. Bu məqsədlə 23 ədəd dayaq quraşdırılmış, 7,7 kilometr ÖİN markalı kabel xətləri çəkilmişdir. 10-6/0.4 kV-luq KTM və transformator mühərriklərində 17 ədəd 0,4 kV-luq 250 A-lik ayırıcı quraşdırılmış, 27 ədəd ayırıcı təmir edilmiş, 25 ədəd KTM-in çıxış kabelləri dəyişdirilmişdir".



**Qusar sukanal sahəsinin rəisi vəzifəsini müvəqqəti icra edən Musabəy Ağabalayev:** "Azərsu" ASC "Birləşmiş Sukanal" MMC 1 saylı Regional Sukanal idarəsinin Qusar sukanal sahəsi 7736 abonentə, o cümlədən Qusar şəhərində 7176, Samur qəsəbəsində 259, Çiləgir kəndində 301 abonentə xidmət göstərir. Ümumilikdə 18 min 360 nəfəri 24 saat ekoloji cəhədən təmiz fasiləsiz su ilə təmin edirik. İdarəmizin kollektivi 2018-2019-cu il payız-qış mövsümünə hazırlıqla əlaqədar ilin əvvəlindən təsdiq olunmuş tədbirlər planına əsasən xeyli iş görmüşdür. Magistral və daxili su şəbəkələrinin, yanğın hidrantlarının, yuma kameralarının siyirtmələri təftiş edilmiş, qışa hazırlıq vəziyyətinə gətirilmişdir. Kanalizasiya şəbəkələrinin baxıcı quyuları çöküntülərdən və lildən təmizlənmişdir. Bundan əlavə, çoxmənzilli yaşayış binalarında kanalizasiya xətləri də təmizlənərək qışa hazırlanmışdır. Abonentlərin həyətlərində quraşdırılmış sayğacların qışda donmasının qarşısını almaq üçün izolyasiya tədbirləri görülmüşdür. Çoxmənzilli yaşayış binalarında pilləkən qəfəslərində su sayğacları izolyasiya olunaraq qutularda quraşdırlmışdır. Sayğacdan abonentlərin mənzilinə kimi su xətləri də izolyasiya edilmişdir.

Xidməti ərazimiz olan Cibir kəndi və Samur qəsəbəsində qışa hazırlıq məqsədilə xeyli iş görülmüşdür. Çiləgir kəndində bütün su axıntılarının qarşısı alınmış, Samur qəsəbəsində isə 180 kubmetr su çəni təmir edilərək saz vəziyyətə gətirilmişdir. Hazırda Samur qəsəbəsində "Azərsu" ASC tərəfindən magistral su kəmərinin tikintisi aparılır".

**Xaçmaz Regional Qaz İstismar idarəsinin Qusar rayonu üzrə rəis müavini Vüsal Seyidov:** "Rayonumuzda qışın sərt keçməsini nəzərə alaraq idarəmiz hazırlıq tədbirlərini vaxtında görmüşdür. Qusar şəhərində yeni qaz xətlərinin çəkilişi davam etdirilmişdir. Şəhərin E.İbrahimov küçəsində 175 metr, Sahil küçəsində 162,5 metr, L.Nemət küçəsində 391,13 metr, C.Qurbanov küçəsində 55 metr, Heydər Əliyev prospektində 230 metr, S.Səfərov küçəsində 282 metr, Z.Baxışov küçəsində 238 metr, Rəsulbəyov küçəsində 263.37 metr, Z.Əliyeva küçəsində 314.9 metr, Bədirqala kəndində 656,77 metr, Aşağı Ləyər kəndində 615 metr, Yuxarı Ləyər kəndində 305 metr uzunluğunda müxtəlif diametrli qaz xətləri çəkilmişdir. Rayonda "Təmiz qaz" MMC-nin Xaçmaz Regional Mərkəzi tərəfindən aşkar edilmiş 1881 ədəd qaz sızması aradan qaldırılmışdır. Şəhərin S.Vurğun küçəsində 150 metr, Sahil küçəsində 162,5 metr, M.Vəliyev küçəsində 100 metr, Z.Əliyeva küçəsində 1000 metr, H.Aslanov küçəsində 700 metr, A.Mehman küçəsində 600 metr, Çiləgir və Urva kəndlərində 75 metr müxtəlif diametrli qaz xətləri rənglənmişdir. Rayon ərazisində 371 ədəd qaz sayğacı həyətlərdən küçəyə çıxarılmışdır.

İlin ötən ayları ərzində kəndlərin qazlaşdırılması davam etmişdir".

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**

## Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci ilin noyabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu

## C Ə D V Ə L İ

| Mərkəzi icra hakimiyyəti orqanı | Qəbul günü | Qəbulun keçirildiyi şəhər | Əhatə olunan şəhər və rayonlar |
|---|---|---|---|
| **Ceyhun Bayramov**<br>**Təhsil naziri** | 05 | Saatlı | Saatlı, Şirvan, Sabirabad, İmişli |
| **Fikrət Məmmədov**<br>**Ədliyyə naziri** | 08 | Balakən | Balakən, Zaqatala, Qax |
| **Arzu Rəhimov**<br>**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** | 15 | Masallı | Masallı, Cəlilabad, Biləsuvar |
| **Sahil Babayev**<br>**Əmək və əhalinin sosial müdafiəsi naziri** | 16 | Şəmkir | Şəmkir, Gədəbəy, Tovuz, Ağstafa, Qazax |
| **Ramin Quluzadə**<br>**Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri** | 16 | Bərdə | Bərdə, Yevlax, Tərtər, Ağdam |
| **Oqtay Şirəliyev**<br>**Səhiyyə naziri** | 16 | Tərtər | Tərtər, Bərdə, Goranboy, Ağdam |
| **Məleykə Abbaszadə**<br>**Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri** | 16 | Xızı | Xızı, Sumqayıt, Abşeron, Siyəzən, Qubadlı, Zəngilan, Şuşa |
| **İnam Kərimov**<br>**Kənd təsərrüfatı naziri** | 17 | Tərtər | Tərtər, Bərdə, Ağcabədi, Ağdam, Laçın |
| **Zakir Qaralov**<br>**Baş prokuror** | 23 | Tərtər | Tərtər, İmişli, Ağcabədi, Ağdam, Beyləqan, Füzuli, Laçın, Xocavənd |
| **Azad Rəhimov**<br>**Gənclər və idman naziri** | 23 | Göyçay | Göyçay, Mingəçevir, Yevlax, Ağdaş, Bərdə, Tərtər, Kürdəmir, Ucar, Zərdab, Ağsu |
| **Şahin Mustafayev**<br>**İqtisadiyyat naziri** | 23 | Ağstafa | Ağstafa, Qazax, Tovuz |
| **Kərəm Həsənov**<br>**Əmlak Məsələləri Dövlət Komitəsinin sədri** | 23 | Salyan | Salyan, Şirvan, Sabirabad, Saatlı |
| **Ramil Usubov**<br>**Daxili işlər naziri** | 24 | Sumqayıt | Sumqayıt, Abşeron, Qobustan, Qubadlı, Zəngilan |
| **Mikayıl Cabbarov**<br>**Vergilər naziri** | 26 | Lənkəran | Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad, Biləsuvar |
| **Mübariz Qurbanlı**<br>**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** | 27 | İmişli | İmişli, Saatlı, Sabirabad, Beyləqan, Xocavənd |
| **Muxtar Babayev**<br>**Ekologiya və təbii sərvətlər naziri** | 30 | Tovuz | Tovuz, Ağstafa, Qazax, Şəmkir, Gədəbəy, Daşkəsən, Göygöl, Samux |
| **Əbülfəs Qarayev**<br>**Mədəniyyət naziri** | 30 | Cəlilabad | Cəlilabad, Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı |
| **Kəmaləddin Heydərov**<br>**Fövqəladə hallar naziri** | 30 | İmişli | İmişli, Saatlı, Sabirabad, Hacıqabul |
| **Səfər Mehdiyev**<br>**Dövlət Gömrük Komitəsinin sədri** | 30 | Sumqayıt | Sumqayıt, Abşeron, Xızı, Siyəzən, Qubadlı |
| **Rövşən Rzayev**<br>**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** | 30 | Quba | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən |

**Qeyd:** *Vətəndaşların qaldırdıqları məsələlər qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanının səlahiyyətlərinə aid olmalıdır.*

**30.10.2018-ci il tarixə pambıq tədarükünə dair operativ məlumat**

| Rayonlar | Əkin sahəsi, hektar | | | 30 oktyabr tarixə pambıq qəbulu məntəqələrinə təhvil verilmişdir, ton | | |
|---|---|---|---|---|---|---|
| | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən |
| **Respublika üzrə cəmi** | **132512,0** | **136413,2** | **97,1%** | **181323,03** | **147683,42** | **122,8%** |
| Ağcabədi rayonu | 10000,0 | 9550,0 | 104,7% | 18973,54 | 13841,94 | 137,1% |
| Ağdam rayonu | 3100,0 | 3005,0 | 103,2% | 4511,78 | 4502,93 | 100,2% |
| Ağdaş rayonu | 3185,0 | 3000,0 | 106,2% | 3107,63 | 2565,00 | 121,2% |
| Ağsu rayonu | 2600,0 | 2500,8 | 104,0% | 1484,95 | 1821,60 | 81,5% |
| Beyləqan rayonu | 9560,0 | 8550,0 | 111,8% | 16735,75 | 11360,67 | 147,3% |
| Bərdə rayonu | 9630,0 | 8518,5 | 113,0% | 19052,22 | 14278,95 | 133,4% |
| Biləsuvar rayonu | 12000,0 | 11351,8 | 105,7% | 16867,82 | 18258,97 | 92,4% |
| Cəlilabad rayonu | 505,0 | 500,0 | 101,0% | 880,55 | 771,20 | 114,2% |
| Füzuli rayonu | 2100,0 | 2050,0 | 102,4% | 1676,96 | 1335,60 | 125,6% |
| Goranboy rayonu | 5000,0 | 5000,0 | 100,0% | 6456,03 | 4246,80 | 1,5 dəfə |
| Hacıqabul rayonu | 1300,0 | 1203,9 | 108,0% | 897,48 | 443,66 | 2 dəfə |
| İmişli rayonu | 13645,0 | 15641,5 | 87,2% | 13941,75 | 9665,09 | 144,2% |
| Kürdəmir rayonu | 5030,0 | 4027,0 | 124,9% | 5251,55 | 3400,10 | 1,5 dəfə |
| Neftçala rayonu | 7000,0 | 11111,0 | 63,0% | 8300,23 | 6971,16 | 119,1% |
| Saatlı rayonu | 15815,0 | 17220,0 | 91,8% | 24334,40 | 21160,30 | 115,0% |
| Sabirabad rayonu | 13055,0 | 15055,0 | 86,7% | 13710,42 | 13598,65 | 100,8% |
| Salyan rayonu | 7055,0 | 7052,4 | 100,0% | 8365,13 | 6555,40 | 127,6% |
| Samux rayonu | 400,0 | 53,0 | 7,5 dəfə | 847,76 | 24,65 | 34,4 dəfə |
| Tərtər rayonu | 3300,0 | 3123,0 | 105,7% | 6204,70 | 6144,74 | 101,0% |
| Ucar rayonu | 2500,0 | 2500,0 | 100,0% | 1284,38 | 1441,77 | 89,1% |
| Yevlax şəhəri | 2500,0 | 2168,0 | 115,3% | 4630,63 | 1995,94 | 2,3 dəfə |
| Zərdab rayonu | 3232,0 | 3232,3 | 100,0% | 3807,37 | 3298,30 | 115,4% |

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**

# SƏYYAD BAYRAMOVUN SƏNƏT DÜNYASI

Azərbaycanın elm və sənət adamlarının adları bu gün dünyanın dörd bir yanında səslənməkdədir. Belə ki, Kanadadan, ABŞ-dan tutmuş Balkanlara, Almaniyaya, Ərəb ölkələrinə qədər bölgələrdə onların yaradıcılıq, pedaqoji, ifaçılıq, rəssamlıq, musiqişünaslıq, idman, kinematoqrafiya və s. sahələrdə çalışdıqlarının şahidi oluruq. Əslində intellektual potensialımızın ayrılmaz parçası olan bu insanlar hər şeydən öncə xalqımızın, millətimizin, dövlətimizin tarixi, vüsətli inkişafı ilə bağlı xarici ölkələrdə geniş məlumatlar verir, burada yaşayan insanlarla xalqımızın sosial-mədəni həyatı, yaşam tərzi və yüksək mənəviyyatı ilə tanış edir, millətlərarası qarşılıqlı mədəni əlaqə və zənginləşmə prosesində mühüm rol oynamış olurlar. Təbii ki, bu xalq elçilərinin hər biri haqqında lazımi məlumatlar vermək, onların yaradıcılıq fəaliyyətlərini işıqlandırmaq, geniş oxucu, dinləyici, seyrçi kütləsinə çatdırmaq olduqca önəmli bir missiyadır. Biz də bu yazımızda istedadlı sənətkar, təcrübəli pedaqoq, professional rəssamlıq dərsi görmüş Səyyad Bayramov haqqında bəzi bilgilərimizi oxucularla bölüşmək istərdik.

Səyyad Bayramov doğma Azərbaycanda və onun



Səyyad Bayramov. "Qarabağ. Xarı bülbül". Kətan, yağlı boya. 2015.

sərhədlərindən çox-çox uzaqlarda tanınan bir sənətkardır. Onun müxtəlif ölkələrin sərgi salonlarında əsərlərinin sərgilənməsi bizdə qürur hissi doğurur. Səyyad müəllimin son müəllif sərgisi Şanlı Urfada (Türkiyə) Harran Dövlət Universitetinin sərgi salonunda açılmış, mütəxəssislərin və seyrçilərin rəğbətini qazanmışdır. Onun sənətinə olan belə bir münasibət (bunu rəssamın sənətinə bir çox mütəxəssisin və jurnalistlərin yazılarından da duymaq mümkündür) heç də təsadüfi deyil. Belə ki, Səyyad müəllimin mükəmməl təhsil görməsi, istedadlı və tanınmış müəllimlərdən aldığı dərslərin müqabilində rəssamlıq sənətinin sirlərinə sahib ola bilməsi, onun professional bir sənətkar kimi yetişməsində önəmli rol oynamışdır. Bu baxımdan onun əvvəlcə Gürcüstanda (1976-1978-ci illər Tiflis Dövlət Rəssamlıq Akademiyasında), daha sonralar isə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun (ÜDKİ) rəssamlıq fakültəsində təhsilini davam etdirməsi, bir professional rəssam və şəxsiyyət kimi yetişməsini şərtləndirir.

Səyyad bəy tələbəlik illərində yaradıcılığın bu istiqamətdə nadir sahələrindən sayılan kino və televiziya rəssamlığı kimi bir sahəyə də yaxından bələd olmuşdur. Maraqlıdır ki, bu sahədə də o, yeniliklərə imza ata bilmişdir. Bir çox filmlərdə onun eskizlərindən istifadə olunması bunun bariz göstəricisidir.

Səyyad Bayramov "Bədii filmdə təsviri sənət yaradıcılığının problemləri" adlı sənətşünaslıq üzrə namizədlik dissertasiyasını Bakıda uğurla müdafiə etmişdir. O, sənət problemləri ilə əlaqəli bir çox önəmli dərgilərdə məqalələrlə çıxış etmiş, eyni zamanda uluslararası simpoziumlara, konqreslərə qatılmışdır. Bunlar da onun yetkin bir elm adamı kimi də xarakterizə olunmasına imkan yaradır. Burada Səyyad Bayramovun pedaqoji fəaliyyətini də xatırlamaq yerinə düşür. O, uzun illər Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təsviri sənətlərin tarixi və nəzəriyyəsi, eyni zamanda rəssamlığın, bu sırada kino və televiziya sənətlərinin praktiki problemləri ilə əlaqədar mühazirələr oxumuşdur. Təbii ki, təhsil prosesində dərslərinin yüksək səviyyədə keçməsi geniş mənada onun öz əsas fəaliyyət sahəsində topladığı bilgilərə, bir rəssam kimi professionallığa, eyni zamanda pedaqoq olaraq zəngin təcrübəsinə, yüksək müəllimlik səriştəsinə, əxlaqına bağlıdır. Onun üç monoqrafiyası, 28-dən çox elmi, publisistik məqaləsi, üç bədii televiziya filminin tərtibatı, iki bölümdən ibarət bədii diafilmin, dörd teatr tamaşasının rəsm və quruluş-tərtibatı və 35-dən çox rəssamlıq sərgilərinin iştirakçısı olması bir daha Səyyad Bayramovun işgüzarlığından və yaradıcılıq diapazonundan xəbər verir. Onun bu gün də elmi araşdırmalarla məşğul olması (Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunda əməkdaşlığı), müəllimlik fəaliyyətini davam etdirməsi, yeni-yeni bədii əsərləri ilə müxtəlif milli və beynəlxaq sərgilərə qatılması, bir çox əsərlərinin Tbilisidə, Türkiyə, Rusiya, Almaniya, ABŞ, Norveç və başqa ölkələrdə şəxsi kolleksiyalarda olması, bir daha bu şəxsiyyətin ömrünü sənətə, onun nəzəri və praktiki problemlərin həllinə həsr etməsinə bir nümunədir.



*Prof.Dr. Babək Qurbanov Qaziantep Universiteti Güzel Sanatlar Fakültesi (Sənət Fəlsəfəsi) və Səyyad Bayramov*

Səyyad müəllimin yaşam yoluna geniş mənada nəzər yetirəndə onun hər zaman inkişafda olmasının, öz professional təcrübəsini mükəmməlləşdirdiyinin şahidi oluruq. Vaxtilə Tbilisidə Rəssamlıq Akademiyasında oxuyarkən dövrün yaradıcı mühitinin içində olması, hələ gənc yaşlarından bu məmləkətin adlı-sanlı sənət adamları ilə yaxınlığı, gürcü xalqının məşhur kinodramaturq-kinorejissoru, Gürcüstanın Xalq artisti Otari İoseliani kimi görkəmli bir rejissorla tanış olması, ondan rejissorluq və rəssamlığın estetik xüsusiyyətlərinə aid bilgilər əxz etməsi, hələ bu sahələrə olan marağının böyük olmasının bir nişanəsi idi. Sonralar bu arzunu gerçəkləşdirmək üçün o, 1987-ci ildə Moskvada Sergey Gerasimov adına Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda aspiranturaya daxil olur. Burada kino rəssamlığı, rejissorluğu üzrə dərs alır. Burada onun müəllimləri dövrünün tanınmış sənətkarları və pedaqoqlarından dərs alır. 1991-ci ildə aspiranturanı bitirir.

S.Bayramov bu gün onların adlarını hörmətlə yad edir. SSRİ və RSFSR Xalq rəssamı, Rusiya Federasiyası Rəssamlar İttifaqının və Rusiya Kinematoqrafçılar İttifaqının katibi, prof. Mixayıl Aleksandroviç Boqdanovu xoş xatirələrlə yada salır.

Professional bir rəssam, həmçinin kino rəssamı və bir operator, rejissor kimi püxtələşməsində müəlliminin böyük rolu olduğunu dilə gətirir. Mixail Aleksandroviç SSRİ və RSFSR-in Xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü, SSRİ və RSFSR-in Kinematoqrafçılar və Rəssamlar İttifaqının katibi idi. Sovetlər dönəmində ilk və yeganə kinematoqrafçı kimi "Hərb və Sülh" (Lev Tolstoyun eyniadlı əsəri əsasında çəkilmiş) bədii filminin 4 quruluşçu-rəssamlarından, baş rəssamı kimi həmin filmin təsviri həllinə görə Gennadi Myasnikovla "Oskar" diplomuna layiq görülmüş sənətkardır.

S.Bayramovun yaradıcılığına verilən mütəxəssis rəyləri və fikirləri bu gün bizdə xüsusi maraq doğurur və bunlar rəssamın professional bir sənətkar kimi yetkin olmasından xəbər verir. Səyyad müəllim haqqında görkəmli dahi sənətkarların və sənətşünasların rəyləri, onun keçdiyi ömür yolunu işıqlandıran xasiyyətnamələr, təqdimatlar bir daha gəstərir ki, o, öz sənətinin vurğunu və mahir bilicisidir.

Azərbaycanın xalq rəssamı, "Azərbaycanfilm" kinostudiyasının quruluşçu rəssamı Elbəy Rzaquliyev, SSRİ və Azərbaycanın Xalq rəssamları M.Abdullayev, T.Salahov, Toğrul Nərimanbəyov, RSFSR Xalq rəssamı Pyotr Petroviç Paşkeyeviç, Azərbaycanın Xalq rəssamı Nadir Əbdürrəhmanov, Azərbaycanın Xalq artisti, SSRİ və Azərbaycan Dövlət Mükafatı laureatı, görkəmli kinooperator, kinorejissor Rasim Ocaqov, akademik Rasim Əfəndiyev, AMEA-nın müxbir üzvü, professor Ə.Salamzadə, Azərbaycanın Xalq artisti, professor, bəstəkar Nəriman Məmmədov kimi tanınmış sənətkarlar müxtəlif vaxtlarda onun haqqında xoş sözlər söyləmiş, xeyir-dualarını vermişlər.

Tələbəlik illərində "Mosfilm" kinostudiyasının istehsalı olan "Qladiator" bədii filmində tələbə-rəssam asissent S.Bayramova SSRİ Xalq Artisti, ssenarist, kinorejissor Georgi Daneliyan və filmin qurluşçu rəssamları Boym və Makarov tərəfindən verilən yaradıcılıq xasiyyətnaməsindən görünür ki, o, hələ o vaxtlardan istedadlı və bacarıqlı, öz üzərində daim çalışan bir sənətkar kimi yetişməkdədir.

Onun arxivi ilə tanışlıqdan sonra məndə belə bir fikir formalaşırdı ki, sənətşünas-tədqiqatçılar üçün Səyyad bəyin yaradıcılığı zəngin materiallar mənbəyidir və onlar bu arxiv materiallarından istifadə edərək onun haqqından yeni-yeni səhifələr aça bilərlər.

Səyyad Bayramova Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı, professor Fərhad Xəlilovun onun 50 illik və 60 illik yubileylərində göndərdiyi təbrikdən sətirlər: "Əziz Səyyad, Azərbaycan rəssamları və şəxsən öz adımdan Sənin kino, teatr sənətinin inkişafındakı qazandığın naliyyətlər və uğurlarınla biz fəxr edirik və sevinirik".

Burada onu da xatırladaq ki, hələ tələbəlik illərindən Səyyad Bayramov görkəmli kino xadimləri — Azərbaycanın Xalq artisti, tanınmış kinooperator, kinossenarist, rəssam, geyim rəssamı və kinorejissor Əlisəttar Atakişiyev, SSRİ və Azərbaycan Xalq artisti, tanınmış ssenarist, aktyor və kinorejissor Əjdər İb-



*"Ölüm izah edir" Kinofilm eskizləri: şəkil-1. "Radmilanın otağı", "Küçədə"*

rahimovla da yaradıcılıq və dostluq münasibətlərində olmuşdur.

Səyyad Bayramovun yaradıcılığına nəzər saldıqda onun müasir bir sənətkar olmasını müəyyən etmək mümkündür. Onun çağdaşımızda dünya təsviri sənətində baş verən bədii hadisələrdən, bədii cərəyanlardan, yeni-yeni təsvir-ifadə vasitələrindən xəbərdar olmasını vurğulamaq lazımdır. Xüsusilə də bir çox qərb bədii cərəyanları onun dünyagörüşünə təbii ki, müəyyən təsir göstərməkdədir. İmpressionizm, abstraksionizm, abstrakt-ekspressionizm, simvolizin, dadaizm, pop-art kimi bədii cərəyanlar ona yaxşı tanışdır və təbii ki, o, yeri gəldikcə onlara xas təsvir-ifadə vasitələrindən yaradıcılıqla faydalanmağa çalışır. Bunların sırasında "Bahar qızı", "Yaz gəldi", "Xarı bülbül" əsərlərində biz rəssamın impressionizmə xas estetik prinsiplər və təsvir-ifadə vasitələrindən istifadə etməsini hiss edə bilərik.

Səyyad Bayramovun bədii yaradıcılığın problemlərinin tədqiqi ilə əlaqədar fəaliyyəti də zənnimizcə əbəs deyil. Məlumdur ki, ən çox tanınmış sənətkarlar heç bir zaman yalnız öz ixtisas sahələri ilə məhdudlaşmamış, yaradıcılıq prosesində qarşıya çıxan bədii-estetik hadisələr, yeni-yeni təsvir-ifadə vasitələri ilə əlaqədar öz düşüncələrini oxucuları, sənət dostları ilə paylaşmağa çalışmışlar. Leonardo Da Vinçi (Rəssamın musiqiçi, şair ilə mübahisəsi risaləsində, L.N.Tolstoy özünün "Sənət nədir" adlı bir çox məqalələrində), həmçinin Üzeyir Hacıbəyli, Səməd Vurğun, Qara Qarayev kimi görkəmli sənətkarlar çoxsaylı yazılarında incəsənətin bədii-estetik poblemlərinə dair önəmli fikirlər söyləmiş, hər zaman inkişafda olan bədii proseslərin problemlərini üzə çıxarma yolunda səy göstərmişlər. Təsadüfi deyil ki, bu qəbildən olan sənətkarlar sadəcə olaraq bir sənətkar kimi yox, eyni zamanda xalqın mənəvi mədəniyyətinə, estetik fikir tarixinə daxil olmuş bir estetik kimi də qiymətləndirilmişlər. Səyyad müəllim yaradıcılıq fəaliyyətində bu meyli də unutmamağa çalışır. Onun uzun illər üzərində tədqiqat apardığı Azərbaycanda kino rəssamlığı problemlərinə ayırdığı diqqət bu baxımdan maraq doğurur. Beləliklə, Səyyad Bayramov bir çox əsərləri, yaradıcılıq işləri, pedaqoji fəaliyyətilə hər zaman diqqəti cəlb edən sənətkar olaraq maraqlı şəxsiyyətdir.

**Prof.Dr. Babək QURBANOV.**

## DTX "saxta təhlükəsizlik orqanı rəsmisi"ni saxlayıb

**Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən aparılan araşdırmalarla Azərbaycan Respublikasının vətəndaşı Həşimov Rzamin Rza oğlunun özünü dövlət təhlükəsizliyi orqanlarının vəzifəli şəxsi kimi təqdim edərək əlaqəsində olan şəxslərlə birlikdə Fətəliyev Hacı Fətəli oğlu, Əmənov Faiq Mətləb oğlu və digər vətəndaşların maddi vəsaitlərinin ələ keçirilməsi istiqamətində cinayət əməlləri törətməsi müəyyən edilib. Həyata keçirilmiş əməliyyat tədbirləri ilə Rzamin Həşimovun qeyd olunan əməlləri müfəssəl qeydə alınıb.**

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Rzamin Həşimov həmin cinayət əməllərində şübhəli şəxs kimi saxlanılaraq cinayət məsuliyyətinə cəlb edilib. O, saxlanılarkən üzərində xüsusi vasitə olan əl qandalı daşıdığı müəyyən edilib.

Məlum olub ki, Rzamin Həşimov əvvəllər də özünü vəzifəli şəxs kimi təqdim edərək törətdiyi cinayət əməllərinə görə 2008-ci il 29 yanvar və 2013-cü il 13 fevral tarixli məhkəmə hökmləri ilə azadlıqdan məhrumetmə cəzalarına məhkum olunub.

Faktla bağlı aparılan cinayət işi üzrə məhkəmənin 2018-ci il 29 oktyabr tarixli qərarı ilə Rzamin Həşimovun barəsində həbs qətimkan tədbiri seçilib.

Hazırda istintaq araşdırmaları davam edir.

**AZƏRTAC**

## "Özünüidarə Günü" layihəsi çərçivəsində seminarlar

Bakı Slavyan Universiteti nəzdində Məktəb-Lisey Kompleksi Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təhsildə inkişaf və innovasiyalar 2-ci qrant müsabiqəsində "Özünüidarə Günü" layihəsi çərçivəsində qalib olmuşdur. Layihə çərçivəsində seminarlar keçirilmişdir.

**"Özünüidarə Günü" layihəsinin rəhbəri, Məktəb-Lisey Kompleksinin direktor müavini Naibə Kərimli** qeyd etdi ki, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək təhsilin əsas məqsədlərindən biridir. Bu baxımdan gələcək nəsli tərbiyə edən orta məktəblərin üzərinə çox çətin, olduqca məsuliyyətli iş düşür.

Məktəbdə şagird bilik, vərdiş, bacarıqlara yiyələnir, gələcək həyat planlarını qurur, məsuliyyəti dərk edir, atacağı sərbəst həyat addımlarını öncədən görür. Şagirdlər onları dəyişən şəraitdə yaşamağa hazırlayan məktəbə gəlməlidirlər. Və məktəbdə şagirdlərə özünüidarə aşılanmasa, çətin ki, bu məktəb müasirliklə ayaqlaşa bilər. Şa-







gird özünüidarə təşkilatlarının fəaliyyəti daim diqqət mərkəzində olmalıdır. Şagirdlərin məktəb həyatında daha fəal iştirakına böyük ehtiyac duyulur. Təklif etdiyimiz layihə şagirdlərdə həm məktəbin idarəolunmasına, həm təhsil prosesinə, həm də məktəbin ictimaiyyət arasında nüfuzunun yüksəlməsinə, maraqlarının artmasına xidmət edəcək.

Respublika Təhsil Nazirliyinin Təhsildə inkişaf və innovasiyalar 2-ci qrant müsabiqəsində qalib gəlmiş "Özünüidarə Günü" layihəsinin məqsədi də məhz passiv şəkildə fəaliyyət göstərən şagird təşkilatlarının fəaliyyətini daha da aktivləşdirmək, məktəbdə keçiriləcək bir günlük "Özünüidarə Günü"nün köməyi ilə şagirdləri məktəbin idarəolunmasında fəallıq göstərməyə cəlb etməkdir.

Onu da qeyd edək ki, məktəbdə şagirdlər gələcəkdə hansı ixtisasa yiyələndikləri qərarını da qəbul edirlər. Layihəmizin gələcək müəllimlərin, müxtəlif ixtisas peşə sahiblərinin, idarəçi üzrə kadrların yetişdirilməsində də rolu böyük olacaq. Şagirdlər Uşaq Hüquqları Konvensiyasında əks olunan bir sıra hüquqları (İştirak hüququ, informasiya əldə etmək hüququ və b.) ilə təmin edəcək.

Layihədə 3 məktəb iştirak edib. Bir Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyinde olan məktəb (Bakı Slavyan Universiteti nəzdində Məktəb-Lisey Kompleksi), bir Bakı şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisəsi (328 saylı məktəb) və bir məcburi köçkün məktəbi (Xocavənd rayonu 2 saylı tam orta məktəb).

Bakı Slavyan Universiteti nəzdində Məktəb-Lisey Kompleksində Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təhsildə inkişaf və innovasiyalar 2-ci qrant müsabiqəsində qalib gəlmiş "Özünüidarə Günü" layihəsi çərçivəsində seminarlar keçirilmişdir. Hər məktəbdən 10 nəfər şagird olmaqla 30 nəfər iştirak etmişdir. Seminarların əsas məqsədi uşaq hüquqları və psixologiya üzrə məşğələlərdə şagirdləri idarəetmə və psixologiya sahəsində zəruri biliklərə yiyələndirmək olmuşdur.

**Əli SADIQOV,**
**"Respublika".**

## SOCAR AQŞ IACET PNG-nin "İlin Təlim Şirkəti" mükafatına layiq görülüb

Davamlı İnkişaf və Təlim Beynəlxalq Assosiasiyası (IACET PNG) tələbələr üçün təşkil olunan Yay İstehsalat Təcrübəsi Proqramı üzrə SOCAR AQŞ-ni "İlin Təlim Şirkəti" kimi qiymətləndirib. Məlumat üçün bildirək ki, müvafiq mükafat neft-qaz sənayesində təlim proqramlarının effektiv təşkili üzrə aparılan təhlillərə əsasən şirkətlərə təqdim edilir.

Tələbələr üçün təşkil olunan Yay İstehsalat Təcrübəsi müəssisənin sosial korporativ məsuliyyət proqramının bir hissəsi kimi yerli və xarici universitetlərdə bakalavr və magistr dərəcəsi üzrə təhsil alan tələbələrə şamil edilir.

Yay İstehsalat Təcrübəsi Proqramı çərçivəsində SOCAR AQŞ ilə ABŞ, Avropa və Asiyanın tanınmış universitetləri arasında ikitərəfli əməkdaşlıq geniş vüsət almaqdadır. Müəssisə istedadlı gənclərin cəlb olunması istiqamətində dünya səviyyəli İstehsalat Təcrübəsi Proqramı təşkil edir. Hər il yüzlərlə gənc tələbə İstehsalat Təcrübə Proqramında iştirak etmək üçün müvafiq qaydada sənədlərini müəssisəyə təqdim edir. Seçim prosesində tələbələrin texniki bilikləri, psixoloji təfəkkürü, dil bilikləri, analitik-kritik düşünmə qabiliyyətləri və komandada işləmək bacarıqları yoxlanılır. Seçim mərhələlərindən uğurla keçən tələbələr 2 ay müddətində təhkim olunduqları biznes bölmələrində təcrübə keçməklə yanaşı, müxtəlif təlim və seminarlarda iştirak edirlər. Əməliyyatların optimallaşdırılması, layihələrin, risklərin idarəolunması, biznesin inkişafı, iqtisadi planlaşdırma və xərclərə nəzarət kimi təlimlərdə iştirak etmək fürsəti əldə edən tələbələr bilik və bacarıqlarını daha da təkmilləşdirmiş olurlar.

İstehsalat təcrübəsinin sonunda tələbələrin əldə etdikləri təcrübi biliklər qiymətləndirilir və hamilər tərəfindən xüsusi hesabatlar tərtib edilir. Proqramı uğurla başa vuran tələbələr, həmçinin müəssisədə öz ixtisas sahələri, bilik və bacarıqları üzrə iş təklifi almaq imkanını da yüksək dəyərləndirirlər. Bu və digər layihələr üzrə aparılan işlər gələcəkdə də SOCAR AQŞ-nin korporativ idarəetmə göstəricilərinin daha da yüksəldilməsinə xidmət edəcək.

Qeyd edək ki, SOCAR AQŞ 2018-ci ilin iyun ayında etibarən IACET PNG-nin üzvüdür.

IACET PNG-nin missiyası akkreditasiya vasitəsi ilə keyfiyyətli təlim və inkişaf üçün standartları təmin etməklə qlobal səviyyədə işçi qüvvələrini inkişaf etdirməkdən ibarətdir.

**M.MİRZƏ,**
**"Respublika".**

## AZƏRBAYCAN RESPUBLİKASI ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİ YANINDA DAŞINMAZ ƏMLAKIN KADASTRI VƏ ÜNVAN REYESTRİ XİDMƏTİNİN TABELİYİNDƏ "KADASTR VƏ YERQURULUŞU LAYİHƏ-TƏDQİQAT MƏRKƏZİ" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir:**

**Lot 1.** "Kadastr və Yerquruluşu Layihə-Tədqiqat Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinə 30 ədəd standart NİVA avtomobilinin satın alınması

Açıq tenderdə iddiaçı qismində sözügedən nəqliyyat vasitələrinin satışı ilə məşğul olan hüquqi şəxslər iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Tenderin Əsas Şərtlər Toplusunu Bakı şəhəri, Yasamal rayonu, Ş.Mehdiyev küçəsi, 269 (Kadastr və Yerquruluşu Layihə-Tədqiqat Mərkəzi, tel.: (+994 12) 533 18 25, e-mail: tebriz.is58@mail.ru) ünvanından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı: 800 (səkkiz yüz) manat**

*"Kadastr və Yerquruluşu Layihə-Tədqiqat Mərkəzi" MMC*
*Hesablaşma hesabı: AZ23AİİB38030019443701778107*
*VÖEN: 1302005671*
*Bank: Kapital Bankın 1 saylı Xətai filialı*
*Kod: 200071*
*Müxbir hesab: AZ37NABZ01350100000000001944*
*VÖEN: 9900003611*
*S.W.İ.F.T.BİK.: AİİBAZ 2X*

**İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
*4. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
*5. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*6. İddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
*7. Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
*8. Müvafiq nəqliyyat vasitəsinin ölkə ərazisində satılması üçün səlahiyyətinin olması ilə bağlı sənədin müvafiq qaydada təsdiq edilmiş surəti;*
*9. Tenderin Əsas Şərtlər Toplusunda göstərilən bütün digər sənədlər;*
*10. Tender təklifi (texniki və maliyyə təklifləri). Tenderin maliyyə təklifi zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
*11. Tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı. Zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır.*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tender təkliflərini qapalı, möhürlənmiş, imzalanmış ikiqat zərflərdə 2 nüsxədə ("Əsli" və "Surəti") təqdim etməlidirlər. İddiaçıların təkliflərinin "Əsli" və "Surəti" arasında fərqlər olduqda üstünlük "Əsli" sözü yazılmış nüsxəyə veriləcəkdir.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil olunduqları dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş, müvafiq qaydada leqallaşdırılmış və ya apostil olunmuş, notarial qaydada təsdiq edilmiş nüsxəsini mütləq əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

Tender predmeti üzrə mallar satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 30 (otuz) təqvim günü müddətində təhvil verilməlidir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı "Kadastr və Yerquruluşu Layihə-Tədqiqat Mərkəzi" MMC-nin tələbatına cavab verən ən aşağı qiymət təklifini təqdim etmiş iddiaçıya üstünlük veriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 04 dekabr 2018-ci il tarixinə qədər (saat 17.00-dək), tender təklifini və tender təklifinin bank təminatını isə 12 dekabr 2018-ci il tarixinə qədər (saat 17.00-dək) Bakı şəhəri, Yasamal rayonu, Ş.Mehdiyev küçəsi, 269 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 13 dekabr 2018-ci il tarixində (saat 15.00-da) Bakı şəhəri, Yasamal rayonu, Ş.Mehdiyev küçəsi, 269 ünvanında açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

---

## Kotirovkaya dəvət

### FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN AKADEMİYASI

### KOTİROVKALAR SORĞUSU ELAN EDİR

**1.** Cari təmir üçün malların alışı.

**2.** 10 illik yubiley ilə əlaqədar suvenirlərin hazırlanması, tərtibat işlərinin görülməsi iş və xidmətlərinin satınalınması

Təkliflər 8 noyabr 2018-ci il saat 12.00-dək qəbul olunur.

Zərflərin açılışı 12 noyabr 2018-ci il saat 15.00-da həyata keçiriləcək.

**Ünvan.** *Bakı şəhəri Suraxanı rayonu Hövsan qəsəbəsi Elman Qasımov küçəsi-8*

**Əlaqələndirici şəxs:** *Əsgərov Qara*

**Telefon:** *0125124108.*

**Tender Komissiyası.**

---

## Azərbaycan İlahiyyat İnstitutu 2018-ci ildə aşağıda adları göstərilən maddələr üzrə

### KOTİROVKA SORĞUSU ELAN EDİR

**1.** Dəftərxana və təsərrüfat malları

**2.** İdarənin digər xərcləri

**3.** Digər maşın və avadanlıq

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 02 noyabr 2018-ci il saat 10:00 tarixindək qəbul olunur.

**Əlaqələndirici şəxs:** *Tender Komissiyasının üzvü: Musayev Məcid*

**Ünvan:** *Bakı şəhəri, Yasamal rayonu, M.Naxçıvani, ev 29.*

---

TƏKRAR

## AZƏRBAYCAN RESPUBLİKASI ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİ YANINDA DAŞINMAZ ƏMLAKIN KADASTRI VƏ ÜNVAN REYESTRİ XİDMƏTİNİN TABELİYİNDƏ "KADASTR VƏ YERQURULUŞU LAYİHƏ-TƏDQİQAT MƏRKƏZİ" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 2 lot üzrə keçirilir:**

**Lot 1.** "Kadastr və Yerquruluşu Layihə-Tədqiqat Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinə GPS-lərin satın alınması

**Lot 2.** "Kadastr və Yerquruluşu Layihə-Tədqiqat Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinə kompüter dəstlərinin, noutbukların, planşetlərin, printer-skanerlərin və UPS-lərin satın alınması

Açıq tenderdə iddiaçı qismində Azərbaycan Respublikasının ərazisində bu cür texniki avadanlıqları (GPS-lərin, o cümlədən kompter dəstlərinin, planşetlərin və skanerlərin) satan yerli və xarici şirkətlər iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Tenderin Əsas Şərtlər Toplusunu Bakı şəhəri, Yasamal rayonu, Ş.Mehdiyev küçəsi, 269 (Kadastr və Yerquruluşu Layihə-Tədqiqat Mərkəzi, (+994 12) 533 18 25, e-mail: tebriz.is58@mail.ru) ünvanından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı:**

Lot 1 üzrə: 800 (səkkiz yüz) manat
Lot 2 üzrə: 800 (səkkiz yüz) manat

*"Kadastr və Yerquruluşu Layihə-Tədqiqat Mərkəzi" MMC*
*Hesablaşma hesabı:*
*AZ23AİİB38030019443701778107*
*VÖEN: 1302005671*
*Bank: Kapital Bankın 1 saylı Xətai filialı*
*Kod: 200071*
*Müxbir hesab: AZ37NABZ01350100000000001944*
*VÖEN: 9900003611*
*S.W.İ.F.T.BİK.: AİİBAZ 2X*

**İştirak haqqı hər lot üzrə ayrı-ayrılıqda ödənməlidir.**

**İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
*4. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
*5. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*6. İddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
*7. Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
*8. Sözügedən mallara malik olduğunu və onların ölkə ərazisində satılması səlahiyyətinin olduğunu sübüt edən sənədlərin müvafiq qaydada təsdiq olunmuş surətləri;*
*9. Texniki Spesifikasiyada göstərilən mallara istehsalçı zəmanəti;*
*10. İddiaçıya məxsus lisenziya və icazələrin müvafiq qaydada təsdiq olunmuş surətləri;*
*11. Tenderin Əsas Şərtlər Toplusunda göstərilən bütün digər sənədlər;*
*12. Tender təklifi (texniki və maliyyə təklifləri). Tenderin maliyyə təklifi zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
*13. Tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı. Zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır.*

İddiaçı hər iki lotda iştirak etmək üçün müraciət edirsə, bu bənddə nəzərdə tutulmuş sənədləri hər iki lot üzrə ayrı-ayrılıqda hazırlayaraq, təqdim etməlidir.

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tender təkliflərini qapalı, möhürlənmiş, imzalanmış ikiqat zərflərdə 2 nüsxədə ("Əsli" və "Surəti") təqdim etməlidirlər. İddiaçıların təkliflərinin "Əsli" və "Surəti" arasında fərqlər olduqda üstünlük "Əsli" sözü yazılmış nüsxəyə veriləcəkdir.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil olunduqları dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş, müvafiq qaydada leqallaşdırılmış və ya apostil olunmuş, notarial qaydada təsdiq edilmiş nüsxəsini mütləq əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

Tender predmeti üzrə (hər 2 lot üzrə ayrı-ayrılıqda) avadanlıqlar satınalma müqaviləsi imzalandıqdan sonra Sifarişçinin sifariş tapşırığı əsasında mərhələlərlə, sifariş verildiyi andan etibarən 30 (otuz) təqvim günü müddətində Sifarişçiyə təhvil verilməlidir.

Tender predmeti üzrə imzalanacaq satınalma müqavilələri tələb olunan bütün avadanlıqlar təhvil verildiyi günədək qüvvədə olacaqdır.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

*- Malların Texniki Spesifikasiyadakı tələblərə uyğunluğu;*
*- Malların dəyəri.*

İddiaçılar tenderdə iştirak etmək üçün (lotlar üzrə ayrı-ayrılıqda) yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 20 noyabr 2018-ci il tarixinə qədər (saat 17.00-dək), tender təklifini və tender təklifinin bank təminatını isə 28 noyabr 2018-ci il tarixinə qədər (saat 17.00-dək) Bakı şəhəri, Yasamal rayonu, Ş.Mehdiyev küçəsi, 269 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 29 noyabr 2018-ci il tarixində (saat 15.00-da) Bakı şəhəri, Yasamal rayonu, Ş.Mehdiyev küçəsi, 269 ünvanında açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

---

## Kotirovkaya dəvət

### FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN AKADEMİYASI

### KOTİROVKALAR SORĞUSU ELAN EDİR

**1.** Yeməkxana mal-materiallarının alışı

Təkliflər 5 noyabr 2018-ci il saat 12.00-dək qəbul olunur.

Zərflərin açılışı 6 noyabr 2018-ci il saat 15.00-da həyata keçiriləcək.

**Ünvan.** *Bakı şəhəri Suraxanı rayonu Hövsan qəsəbəsi Elman Qasımov küçəsi-8*

**Əlaqələndirici şəxs:** *Əsgərov Qara*

**Telefon:** *0125124108*

**Tender Komissiyası.**

---

## Kotirovkaya dəvət

### FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN AKADEMİYASI

### KOTİROVKALAR SORĞUSU ELAN EDİR

**1.** Yeməkxana üçün maşın və avadanlıqlarının alışı

Təkliflər 5 noyabr 2018-ci il saat 12.00-dək qəbul olunur.

Zərflərin açılışı 6 noyabr 2018-ci il saat 15.00-da həyata keçiriləcək.

**Ünvan.** *Bakı şəhəri Suraxanı rayonu Hövsan qəsəbəsi Elman Qasımov küçəsi-8*

**Əlaqələndirici şəxs:** *Əsgərov Qara*

**Telefon:** *0125124108*

**Tender Komissiyası.**

---

## Naftalan Şəhər İcra Hakimiyyəti yeni 200 yerlik körpələr evi-uşaq bağçasının tikintisi ilə əlaqədar

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) Lot üzrə keçirilir:**

**Lot-1.** 200 yerlik körpələr evi-uşaq bağçasının tikintisi.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər Lot-1 üzrə 100 (yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Naftalan şəhəri, Ş.Qurbanov küçəsi - 01 ünvanından (əlaqələndirici şəxs: Qasımov Səbuhi Nizami oğlu, tel: 02235-2-23-33) ala bilərlər.

*Təşkilat: Naftalan Şəhər İcra Hakimiyyəti*
*Hesab: AZ56AİİB32051019445600201156*
*VÖEN: 2800004291*
*Bank: Kapital Bankın Naftalan şəhər filialı*
*Kodu: 200565*
*VÖEN: 9900003611*
*Müxbir hesabı:*
*AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T.BİK Aİİ BAZ 2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi ( zərflərin açıldığı tarixdən ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır;*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank zəmanəti (Zərflərin açıldığı tarixdən ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanı tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Görülən işlər təqdim olunmuş qrafikə əsasən yerinə yetirilməlidir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tendüerdə iştirak etmək üçün tender təklifləri, bank zəmanəti, yuxarıda göstərilən sənədləri 11 dekabr 2018-ci il saat 17:00-dək möhürlənmiş ikiqat zərfdə tender komissiyasına (ünvan: Ş.Qurbanov küçəsi 01; Naftalan Şəhər İcra Hakimiyyətinin inzibati binası) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərf açılmadan geri qaytarılacaqdır.

İddiacının təklifləri 12 dekabr 2018-ci il tarixdə saat 11:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiacının səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

---

Gəncə şəhəri Nizami rayonu Cavadxan küçəsi ev 138 V Abdullayev İsrayıl İsmayıl oğlunun adına olan 07.04.2008-ci ildə verilmiş N 0016383 nömrəli Çıxarış və 201013001352-10301 Texniki pasport itdiyi üçün etibarsız sayılır.

Quba rayonu Yenikənd kənd sakini İbadov Gündüz Arif oğlu və onun ailə üzvlərinin adına verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 0064, Kod: 30325038) itdiyi üçün etibarsız sayılır.

DTİ və MHQİ tərəfindən Yevlax şəhəri C.Kərimov küçəsi 44 saylı evə dair Quliyeva Böyükxanım Rza qızının və ailə üzvlərinin adına verilmiş 06 saylı, 1999-cu il tarixli qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Cəbrayıl rayonunun ƏSMM tərəfindən Quliyeva Tərgül Muradxan qızına verilmiş N025047 şəhidlik vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Quba rayonu Bağbanlı kənd sakini Əlicabbarov Asif Binadar oğlunun adına verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN:274, kod:30316028) itdiyi üçün etibarsız sayılır.

Lerik rayon aqrar islahat komissiyasının 25 dekabr 1998-ci il tarixli 46 nömrəli qərarı ilə Orand kənd sakini Sadıxov Sabir Balaxan oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 0034; KOD 80317038) itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən 12 oktyabr 2017-ci il tarixdə Topçu bələdiyyəsinə 0,0187 ha torpaq sahəsinə mülkiyyət hüququna dair verilmiş Daşınmaz əmlakın AN - I № 0675320 saylı Alqı-satqı müqaviləsi əsasında Topçu bələdiyyəsinin reyestr nömrəsi 407012001133 olan Torpaq sahəsinin planı və ölçü sənədi itdiyi üçün etibarsız sayılır.

Həsənov Zeynalabdi Məhəmməd oğlunun adına Xaçmaz rayonu Köhnə Xaçmaz kəndində yerləşən torpaq sahəsinə verilmiş Daşınmaz Əmlakın Dövlət Reyestrindən Çıxarış (reyestr nömrəsi; 302013003925) itdiyi üçün etibarsız sayılır.

Şirvan şəhəri, M.Ə.Rəsulzadə küçəsi bina 23A/8 saylı mənzilin sakini Alışov Rasim Nədirxan oğluna məxsus 11-215 saylı Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

TƏKRAR

## Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Dövlət İqtisad Universiteti Təhsilin İdarəedilməsi Sistemində Yeni Elektron Həllərin Yaradılması İşlərinin satınalınması ilə əlaqədar

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir:**

**Lot-1.** Təhsilin İdarəedilməsi Sistemində Yeni Elektron Həllərin Yaradılması İşlərinin satınalınması.

Tenderdə iştirak etmək üçün iddiaçılar 500 manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Səbail rayonu, İstiqlaliyyət küçəsi 6 ünvanında yerləşən Azərbaycan Dövlət İqtisad Universitetinin əsas binasından ala bilərlər.

**Əlaqələndirici şəxs: Aqil Əhmədov.**

**Əlaqə telefonu: (012) 492-59-23**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

*VÖEN 1700091281*
*Bankın adı: "Kapital Bank" ASC-nin Səbail filialı*
*VÖEN 9900003611*
*M/H AZ37NABZ01350100000000001944*
*H/H: AZ96AİİB33010019443507362105*
*Kodu: 200059*
*SWİFT: AİİBAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 2 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair təmin edilməmiş öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının təsdiqi;*
*- İddiaçının son bir ildəki maliyyə vəziyyətini əks etdirən bank arayışı;*
*- İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- İddiaçının nümayəndəsinin tender təklifinin təqdim edilməsi və imzalanması üçün səlahiyyətli olması barədə notarial qaydada təsdiq edilmiş sənədi.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 23 noyabr 2018-cı il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 30 noyabr 2018-ci il saat 18:00-a qədər Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6 (37-ci otaq) ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 3 dekabr 2018-ci il tarixdə saat 15:00-da Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6 ünvanında Azərbaycan Dövlət İqtisad Universitetinin əsas tədris binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**

---

## Bakı şəhər Heyvanat parkı 2019-cu il üçün tələb olunan kənd təsərrüfatı məhsullarının satınalınması ilə əlaqədar

## AÇIQ TENDER ELAN EDİR

**Lot-1.** Heyvanların yemlənməsilə əlaqədar kənd təsərrüfatı məhsulları: balıq, ət, at, ağ siçovul, siçan, dənli bitkilər, meyvə, tərəvəz, su donuzlarının satınalınması

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, yuxarıda göstərilən Lot üzrə tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin yerinə yetirilməsi təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər Lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Nərimanov rayonu, Bakıxanov küçəsi, 39 ünvanından (Əlaqələndirici şəxs: Hüseynov Azər Rəhim oğlu, telefonlar: 440-10-96, 441-04-54, 050-214-93-34) ala bilərlər.

**Lot-1-200 (iki yüz) manat**

*Təşkilat: Bakı şəhər Heyvanat Parkı*
*VÖEN: 1500217391*
*Hesab: Az44AİİB33070019441100248111*
*Bank: "Kapital Bank"ın 1 saylı Nəsimi filialı*
*VÖEN: 990000681*
*Kodu: 200112*
*Müxbir hesabı:*
*AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T BİK: AİİBAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır); -tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında arayışı;*
*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 7 dekabr 2018-ci il saat 17:00-dək, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 17 dekabr 2018-ci il saat 17:00-a qədər Bakı şəhəri, Heyvanat Parkına (ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Bakıxanov küçəsi, 39 ünvanına) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 18 dekabr 2018-ci il tarixdə saat 16:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

---

## ALLAH RƏHMƏT ELƏSİN

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Südabə Həsənova və Yaqub Əliyev Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədovaya və Azərbaycan Texniki Universiteti Metallurgiya fakültəsinin dekanı Aqil Babayevə, əzizləri**

**ALİM BABAYEVİN**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

---

**"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi iqtisadiyyat nazirinin müavini Sevinc Həsənovaya, atası**

**TELMAN HƏSƏNOVUN**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

---

**Azərbaycan Texniki Universitetinin Metallurgiya və metalşünaslıq kafedrasının kollektivi Metallurgiya fakültəsinin dekanı, professor Aqil Babayevə, qardaşı**

**ALİM BABAYEVİN**

**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

---

**Tanrıverdi Mustafayev Azərbaycan Texniki Universitetinin Metallurgiya fakültəsinin dekanı Aqil Babayevə, qardaşı**

**ALİM BABAYEVİN**

**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

---

**Azərbaycan Texniki Universitetinin Materiallar texnologiyası kafedrasının əməkdaşları Metallurgiya fakültəsinin dekanı, professor Aqil Babayevə, qardaşı**

**ALİM İSA oğlu BABAYEVİN**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: 539-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 538-55-20;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 539-26-18;
Humanitar siyasət redaksiyası: 538-25-70;
Xəbərlər redaksiyası: 538-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 539-95-51; 538-43-41 tel/faks;
Qəbul otağı: 538-25-70;
Katiblik: 538-25-70;
Reklam və elan xidməti: 441-20-23.



● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Əli SADIQOV

● Çapa imzalanmışdır
30.10.2018